# YAZARLAR

**(aylıq ədəbi-bədii, elmi jurnal)**

**Oktyabr 2022 (22)**

(2021-ci ildən çıxır)

**Təsisçi və baş redaktor:** Zaur Ustac.
**Texniki redaktor:** Tuncay Şəhrili.
**Məsul katib:** Araz Şəhrili.
**Yaradıcılıq məsələləri üzrə menecer:** **Şəlalə CAMAL.**
**İctimaiyyətlə əlaqələr üzrə menecer:** **Nəzakət KƏRİMOVA-ƏHMƏDOVA**

**Fəxri redaksiya heyəti:** Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Lev Tolstoy, Əhməd bəy Ağaoğlu, Əbdürrəhim bəy Haqverdiyev, Cek London, Əliqulu Qəmküsar, Vintsas Kreve, Üzeyir Hacıbəyov, Pənahi Makulu, Səməd Vurğun, Şəhriyar, Bayram Bayramov, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Cabir Novruz, İldırım Əkbəroğlu (Füzuli), Alı Mustafayev, Mustafa Müseyiboğlu, Ülvi Bünyadzadə.

**Redaksiya heyəti:** Ayətxan Ziyad (İsgəndərov), Akif Abbasov, Mahirə Nağıqızı, Vüqar Əhməd, Təranə Məmməd, Aydın Xan Əbilov, Seymur Sönməz (Paşayev), Kamal Camalov, Leyli Novruzova, Aysel Nazim, Nuranə Rafailqızı, Səma Muğanna, Şəlalə Camal, Əli bəy Azəri, Ülvi Aydın, Fəridə Abdul, Taleh Xəlilov, Zaur Ərmuğan, Leyla Yaşar, Yadigar Təvəkgül, Aytac İbrahim, Mövlud Ağamməd, Əsgər Ordubadlı, Alik Dənizsevər , Rafiq Hümmət (Gürcüstan), Leyla Oruc, Faruk Habiboğlu (Türkiyə), Əbülfəz Əhməd (Almaniya), Günay Əliyeva (Norveç).

## BU SAYIMIZDA

Baş redaktordan ........................................................... 3
Yazarlar jurnalı ........................................................... 4
İsa Həbibbəyli. Rəşad Məcid necə varsa ............................ 5
Zaur Ustac. Mütaliə niyə vacibdir?! .................................... 25
Şəfaqət Cavanşir. Soltan bəy əfsanəsi ................................ 31
Murad Məmmədov. Türkün qılıncı ...................................... 46
Şəlalə Adilqızı. Qarabağı azad edən qəhrəman .................. 53
Şəlalə Camal. Ayrılıq.......................................................... 60

# 15 YAŞIMIZ MÜBARƏK!!!

Salam olsun, Azərbaycanın ilk hibrid jurnalı olan "Yazarlar"ın çox dəyərli yazarları və oxucuları! Bizim yalnız bir məqsədimiz var ki, o da ***"Yaradıcı uşaq - gənclərin dövrü mətbuatda çıxışını asanlaşdırmaq , onların tanınmasına köməklik göstərmək"*** olmaqla məramnaməmizdə aydın şəkildə qeyd olumuşdur. Aylıq ədəbi-bədii, elmi jurnal olan "Yazarlar" kitabxanalar üçün ənənəvi qaydada məhdud sayda nəşr olunur və elektron formatda bir neçə sabit, dayanıqlı, təhlükəsiz platformadan PULSUZ olaraq yayımlanır. Jurnalın bu günə qədər çap olunmuş bütün nömrələrini **BİTİK.AZ saytından sifariş yolu ilə əldə edə bilərsiniz. Eyni zamanda Wahtsapp:** (+994) 70-390-39-93
"YAZARLAR, ANCAQ YAZARLAR…" © YAZARLAR



**Zaur USTAC**

## BAŞ REDAKTORDAN

Salam olsun, dəyərli oxucular!
Jurnalımızın oktyabr 2022-ci il (22-ci sayı) ilə görüşünüzə gəlmişik.

Bu sayımız dəyərli alim AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibəylinin “Rəşad Məcid necə varsa” adlı maraqlı yazısı ilə başlayır. “Mütaliə niyə vacibdir?!” adlı yazımdan sonra Şəfaqət Cavanşirin “Soltan bəy əfsanəsi” adlandırdığı hekayəsi, Murad Məmmədovun, Şəlalə Adilqızının və Şəlalə Camalın yeni şeirləri ilə tanış olacaqsınız.

Barlı-bəhərli payız kimi zəngin və rəngarəng oktyabr sayımızı diqqətinizə təqdim edirik. Buyurun, tanış olun.



## “YAZARLAR” JURNALI

### “Yazarlar” jurnalı öz işini aşağıdakı prinsiplər və sturuktur əsasında qurur:

- Jurnalla əməkdaşlıq edən yazarlar “Müstəqil Yazarlar Konfederasıyası” adlı alt qurumda birləşirlər (məqsəd yaradıcılıq əlaqələrini möhkəmlətmək və bir-birinə dəstək olmaqdan ibarətdir. Heç bir maddi və ticari məqsədi yoxdur. Üzv yazarlar nə qurum, nə də bir-birləri qarşısında heç bir öhdəlik daşımırlar. Üzvülük haqqı nəzərdə tutulmayıb.)
- Gənc yazarlar “Yazarlar dərnəyi” adlı ikinci alt qurumun vasitəsi ilə mütamadi olaraq ustad yazarlardan faydalı məsləhət və tövsiyələr alırlar. Bundan əlavə dərnək əvvəlcədən müəyyən olunmuş layihələr çərçivəsində jurnalın xüsusi buraxılışlarını təşkil edir.
- Müəyyən layihələrin təşkili və gənc yazarların elan olunmuş müsabiqələrə təqdim edilmiş əsərlərinin nəşr olunmaq üçün seçilməsinin obyektivliyini təmin etmək məqsədi ilə tərkibi gizli saxlanılan 5 (beş) nəfər təcrübəli və filoloji təhsili olan yazardan ibarət “Yaradıcılıq Komisiyyası” adlı üçüncü alt qrum yuxarıda qeyd olunduğu kimi ancaq yaradıcılıq məsələləri ilə məşğul olur.
- “Yazarlar” jurnalı bütün sadalanan və burada qeyd olunmamış gündəlik fəaliyyət zamanı ortaya çıxan məsələləri ictimai əsaslarla (ödənişsiz) həyata keçirir.



*İsa HƏBİBBƏYLİ*

## RƏŞAD MƏCİD NECƏ VARSA

Bədii yaradıcılığın bir neçə istiqamətində uğurla fəaliyyət göstərən Rəşad Məcid müstəqillik dövrü Azərbaycan ədəbiyyatı və mətbuatının əsas yaradıcılarındandır.
Rəşad Məcidin lirikası dərin lirizmlə üzvi əlaqə əsasında yaranan əhəmiyyətli sənət hadisəsidir. Rəşad Məcidin 1993-cü ildə ilk şeirlər toplusu kimi nəşr edilən onun yaradıcılığı "vaxt var ikən şeir də yazım" – məntiqindən deyil, yazmaya bilməmək zərurətindən meydana çıxmış xalis lirika nümunələridir. "Hələ ki vaxt var" şeirlər kitabına yazdığı "On il əvvəlin toplusu" adlı müqəddimədə etiraf etməli olduğu kimi, artıq səksəninci illərdə, yəni 18-21 yaşlarında özünü, gələcək həyatını şeirdən, ədəbiyyatdan uzaqda düşünməyin mümkünsüzlüyünü dərindən hiss etmişdir. "Hələ ki vaxt var" kitabından görünür ki, Rəşad Məcid üçün şeir "bir dolu ürəyin püskürmə çağı"dır, "dikəlib asfaltı deşən bənövşə"dir, "sinədə boğmaq mümkün olmayan bir qəfil hönkürtü" kimi təbii proseslərin nəticəsində yaranmış bədii düşüncənin ifadəsidir.
Rəşad Məcidin lirikası içərisində olduğu cəmiyyətlə və doğma təbiətlə birgə nəfəs alan bir qəlbin həyata şairanə şəkildə vurğunluğudur. Onun şeirlərində dünya da, Vətən də, ictimai

motivlər də, milli duyğular da, sevgi də, təbiət də, tale də özünün təbii şeiriyyətini təqdim edir. Mövzusundan asılı olmayaraq, Rəşad Məcidin hər misrasının “göyərçin qanadı” kimi bənzərsiz obrazlı görkəmi, bayatılarda olduğu kimi hər bəndin lirik-fəlsəfi mənası vardır. Rəşad Məcidin şeirləri həyata şairanə baxışın özünəməxsus bədii ifadəsidir:

Leysanların, tufanların inadı sınır,
Gün işığı parıldayır qaya döşündə.
Şəfəqləri qucağına sıxıb qızınır,
Gülümsəyir damlaların düzülüşündə.

Rəşad Məcidin şeirləri həyat və insan haqqında lirik düşüncələrdən yoğrulmuş daxili poetik monoloqdur. Bu şeirlər dünyadan, həyatdan və insandan danışan işıqlı və obrazlı düşüncələrdən yoğrulmuşdur. Rəşad Məcid şeirlərində bütün hallarda, o cümlədən, lirik duyğularını ictimailəşdirəndə də obrazlı düşüncənin təbiiliyini və səmimiyyətini, lirizmi qoruyub saxlayır. Ona görədir ki, Rəşad Məcidin lirik qəhrəmanı da həmin işığın, milli-mənəvi varlığın real və təbii bir daşıyıcısıdır.
Yol qırağında əlində çomağı ilə yurda keşik çəkən balaca çoban haqqındakı obrazlı düşüncələrin ifadəsi və mövzunun ictimai mahiyyətinin orijinal poetik təqdimi ilə yalnız Rəşad Məcidə məxsus olan şeirin təbii doğuluşu baş vermişdir:

Tərpənən qanımız, qeyrətimizdir,
Balaca boyuyla heyrətimizdir.
Mürgüsü dağılan millətimizdir.
Orda – keşik çəkir yol qırağında,
Yurda keşik çəkir yol qırağında.

Rəşad Məcidin şeirlərində təkcə təbiətin deyil, milli-mənəvi dünyamızın daxili mahiyyəti, işıqları bütün təbiiliyi ilə sayrışır. Bu, Azərbaycan ədəbiyyatında zaman-zaman “Bakının sayrışan işıqlarından”, “közərən ocaqlar”dan, yollara çıxan “işıq qatarlarından” sonra yaranmış yeni bir işıq dalğasıdır. Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Vaqif Bayatlı, Vaqif Bəhmənli, Rüstəm Behrudi, Elman Həbib və başqaları həmin

yeni şeir axınına hərəsi bir hadisə olaraq gəlmişlər. Rəşad Məcidin şeirləri bu böyük dalğanın içərisində özünəməxsus bir poetik hadisədir. Rəşad Məcidin lirikası – işıqlı düşüncələrin şeiriyyətidir. Onun şeirləri Günəş, işıq, Ay işığı, ümid, ulduz, ocaq, pərvanə, şəfəq, şam, nur, od, alov, köz, kibrit, çiçək və sair kimi işıqlı ifadələrin cazibəsi üstündə qurulmuşdur. Bu şeirlər dəmirçi kürəsi və ya qızmar günəşin altındakı torpaq kimi istidir. “Gül-çiçəklər yaraşıqdı, lalələr xaldı eləcə”, “Od-alov sazını basıb döşünə, Kərəm qisasını aldı Ədalət”, “Bir işıqdan keçdim, anam, Gözlərimi dörd elədi” misralarında işıq əsas mənanın mühüm daşıyıcısıdır.
Müdriklik ölçülərində də Rəşad Məcid təbii bədii düşüncənin ən fəlsəfi və ümumiləşdirilmiş obrazlı örnəklərini təqdim edə bilir. Gənclik illərində yazdığı şeirlərindəki kamillik ömrünün yetkinlik dövrünü yaşayan təcrübəli bir insanın mütəfəkkir düşüncəsinin ümumiləşmiş poetik ifadəsi kimi səslənir:

Sonrakı təəssüf hədərdi, hədər –
Ağlayıb sızlama hər addımbaşı.
Qəlbin günahını yuyar bəlkə də,
Ağlın günahını yumaz göz yaşı.

Rəşad Məcid şeirinin qayəsində “Arazlaşan, Kürləşən Vətənin” bütövlüyü və qüdrəti, “At belində, döşündə saz, əlində qılınc” nər oğulların daim ayıq-sayıq ölkənin keşiyini çəkməsinin müqəddəsliyi, obanın, elin tarixi yaddaşı olan Cıdır düzünün timsalında torpağımızın bölünməzliyinin qorunması ideyaları müsəlləh əsgər qüruru ilə dayanır. Rəşad Məcidin vətənpərvərlik mövzusunda yazdığı şeirlər şair-vətəndaş mövqeyinin poetik ifadəsidir. O, ana Vətənlə özü arasında da, xalqı və ölkəsi müstəvisində də geniş mənada bütövlüyün tərənnümçüsüdür. Böyük ideallara həsr olunmuş Vətən şeirlərində həm də yüksək şeiriyyət, böyük bədiilik vardır.

…Dərəsi, torpağı, düzü, dağıyla,
Köksümə, qəlbimə yerləşən Vətən.
Nə vaxtdır bölünən bölünməzliyi,

Bir namərd baxışlı göz deşən Vətən.
***
…Dikələn qayası, ucalan dağı
Əyilməz bürcüdür, yanan çırağı.
Yayılıb Kür boyu, Araz qırağı
Arazlaşan Vətən, Kürləşən Vətən.

Müşahidə olunur ki, Rəşad Məcidin şeirlərində obrazlı işıqlı düşüncələr, həyata lirik-romantik və gerçəkçi baxış həm də epik təhkiyə ahəngində ifadə edilir. Bu şeirlərin bir çoxunda zahirən görünməsə də, hiss olunacaq səviyyədə müəyyən süjet əlamətləri də nəzərə çarpır. Bunlar heç də süjetli lirika nümunələri deyildir. Bu şeirlərdə dialoq da yoxdur. Rəşad Məcid şeirlərində dərin, zərif duyğularını, həyata və insana baxışlarını tərənnüm etmir, elə bil nağıl kimi danışır. Rəşad Məcidin şeirlərinin ritmində və mahiyyətində özünəməxsus bir nağıl təhkiyəsi vardır. Bu şeirlərin əksəriyyətinin mahiyyətində lirik-romantik düşüncə, təqdimatında isə zərif epik təhkiyə diqqəti cəlb edir:

Qan yaddaşım od ələyib duyğularıma,
Əfsanələr cavab tapıb sorğularıma.
Bir igid də tez-tez girir yuxularıma
At belində, döşündə saz, əlində qılınc.

Rəşad Məcidin şeirlərindəki nağılvarilik həm lirizmi zənginləşdirir, həm də epik təhkiyənin poetik daşıyıcısına çevrilir. Təkcə nağılvarilik yox, ümumiyyətlə, şifahi xalq ədəbiyyatı Rəşad Məcidin bədii yaradıcılığının, xüsusən də şeirinin əsas qaynaqlarından biridir. Onun dünyagörüşünün formalaşmasında da şifahi xalq ədəbiyyatı mühüm rol oynamışdır. Rəşad Məcidin yaradıcılığındakı millilik amili də öz kökləri etibarilə real həyati qavrayışla yanaşı, həm də zəngin şifahi xalq ədəbiyyatı ənənələrinə bağlıdır. Rəşad Məcid uşaqlıq illərinin nağıl-dastan dünyasının onun taleyindəki yerini, izini geniş ürəklə etiraf etmişdir:

Məni çağırdılar… çəkib nağıldan

Sehrli qarını çağırmadılar,
Qıratı, Düratı çağırmadılar.
O uzaq illərin işıqlığında
Çiçək arzularım boy atır hələ.
Ayrılıb ilahi uşaqlığımdan
O səsin ardınca gedirəm hələ.
***

Rəşad Məcidin “Roman” adlandırdığı poeziya serialı onun yaradıcılığında şeiriyyətlə, lirika ilə epik əlamətlərin sintezinin inkişafı və ümumiləşmiş ifadəsidir. Onun liro-epik şeirləri “Roman”a keçid üçün körpü funksiyası daşıyır. Əlbəttə, Rəşad Məcid bu əsərini şərti olaraq “Roman” adlandırmışdır. Bu, çılğın məhəbbətlə sevən, qarşı tərəfdən anlaşılmazlıq və tərəddüdlər hiss edən, tamam cavab ala bilməyən, sevdası nakam sonluqla bitən bir gəncin düşüncələrinin poetik təqdimatından ibarət olan tale romanıdır. Hətta bu əsərdə əks etdirilən mətləblərdən, iztirablardan bəlkə də real olaraq roman janrında ayrıca bir əsər də yazmaq olar. Buna görə “Roman” ifadəsi əsərin janrını deyil, ilk növbədə adını, sonra isə mahiyyətini bildirir. Romana məxsus çoxplanlılıq, obrazların zənginliyi, hətta geniş həcm bu əsərdə nəzərdə tutulmayıb. Rəşad Məcidin “Roman” adlandırdığı əsər janr baxımından liro-epik poemadır. Əsər lirik şeirlərlə və epik təhkiyə ilə ifadə olunan hadisələrin nəzərəçarpacaq süjet əsasında poetikləşdirilməsi üzərində qurulmuşdur. Liro-epik şeirlərində olduğu kimi, 1996-cı ildə tamamlanmış “Roman”da da əslində süjet qabarıq şəkildə deyildir. İki gəncin macərasının ayrı-ayrı məqamlarını, təfərrüatlarını, düşüncələrini və iztirablarını əks etdirən bu əsərdə şeirdən-şeirə keçid əhval-ruhiyyənin, ovqatın dəyişməsini, münasibətlərin inkişafını əhatə edən mənəvi proseslərin inkişafını izləməyə imkan yaradır. Silsiləvari şeirlərdən əsərdəki əsas obrazın tərcümeyi-halını, xasiyyətini, aqibətini də müşahidə etmək olur. Poetik şəkildə ifadə olunan daxili monoloqlar əsasında yazılmasına baxmayaraq,

“Roman”da süjetin bütün inkişaf mərhələlərini müəyyən etmək mümkündür. “Tapdım” şeiri ilk növbədə “Roman”da epiloq funksiyasını yerinə yetirir. Bu, bədii müqəddimədən əvvəl gələn, əsər boyu cərəyan edəcək hadisələri, çıxarılacaq nəticələri ifadə edən dərin mənalı bir bədii ümumiləşdirmədir. Şeir yaradıcılığındakı “gözəgörünməz” süjetləri özündə daşıyan bəndlərin funksiyasını Rəşad Məcidin “Roman”ında ayrı-ayrı şeirlər yerinə yetirir. Cəmi 56 şeirdən ibarət olan bu poetik silsilə süjetin inkişafından doğan poetik düşüncələr və qənaətlərdir. Başlanğıc hissədəki “Gəldim” şeiri əsərin süjet xəttində bədii müqəddimənin girişi – proloqu funksiyasını daşıyır. “Uşaq, uşaq…, balaca uşaq” şeiri “Roman”dakı obrazların ilkin təqdimatıdır. “Roman”ın qəhrəmanının “yoluna çiçəklər sərmək”, “saçına çələnglər hörmək” istədiyi Uşaq ilə onun arasında həm “yaş adlı uçurum qılıncı durur”, həm də yaşdan doğan dünyagörüş fərqini də əks etdirir. Bundan sonra hadisələrin ilkin dolaşıqlıq mərhələsi başlayır. “Çərlədim” şeiri “yüz addımın qabağında bir addıma gücü çatmayan”, “sözü kəlbətinlə çıxan” Uşağın xarakterindən yaranan ilk iztirabların ifadəsidir. Onu sanki iki dünya arasına salan “Quyu” şeiri ilə ziddiyyətlərin daha da artmaqda davam etdiyi görünür. “Qurtul, görüm”, “Qurtulmasan batma yasa”, “Ağla” şeirləri əsərdəki sevgi iztirablarını dilləndirir. “Mən gəlib çatanda getmişdin artıq” şeirində tərəf müqabilin obrazı “nərgiz topası” kimi təqdim olunur. “Son” şeirində iztirabların dərin həyəcanı döyünür. Amma “Yaxşı ki bu son olmadı” şeiri ilə hadisələr nikbin məcra alır, yeni nəfəs qazanır. “Bu həftə”, “Mənim bəsimdir”, “Qurban vermə gəl”, “Öldürmək istədiyin hissin nəğməsi” şeirlərindən hər biri qarşılıqlı münasibətlərin inkişaf etməkdə olduğunu göstərir.

“Roman”da janr baxımından əsl romanlarda olduğu kimi bir neçə yerdə haşiyə xarakterli şeirlər vardır. Üç hissədən ibarət olan “Ovqat” şeiri də haşiyə funksiyasını yerinə yetirir. Haşiyələr əsərdəki əhvalatın, ovqatın həmin andakı

mahiyyətinin açılmasına, aydınlaşmasına, gərginliyin azaldılmasına xidmət edir. “Qayıdır” şeirində vüsala çatmaq yox, hicranın çətinlikləri qarşısında qalan qəhrəmanın “çəkdiyi təlaş”ların yenidən qayıtdığı dilə gətirilir. Ümidqarışıq ilkin qənaət: “Hələ də uşaqsan”. Və birinci qəti addım: “Əlindəki öpüş yeri”:

Yaqut qaşlı üzük kimi,
Bahalı bilərzik kimi,
Göyərəcək, qızaracaq
Çapıq kimi, kəsik kimi
Neyləsən də getməyəcək
Əlindəki öpüş yeri.

“Əlindəki öpüş yeri” həm də bu mövzuda yazılmış müstəqil bir şeirdir. Ümumiyyətlə, “Roman”dakı şeirlərin çoxu mətndən kənarda ayrıca şeir nümunəsi kimi qəbul oluna bilər. “Gəldim”, “Ağla”, “Sənə görədir”, “Səndən bir söz çıxanacan”, “Sənsiz”, “Getdinsə”, “Məni”, “Saatım qurulub sənin vaxtına” və sair şeirlər Rəşad Məcidin lirikasının da, yeni Azərbaycan şeirinin də dəyərli nümunələri sayılmağa layiqdir. Eyni zamanda, bu şeirlər “Roman”da süjetin inkişafını, tərəflərin əhval-ruhiyyəsini, həyatın, sevginin, iztirabların da mənasını açmağa, aydınlaşdırmağa, inkişaf etdirməyə xidmət edir. Azərbaycan ədəbiyyatında poema yaradıcılığında lirik ricətlər, haşiyələr kimi şeirlərdən istifadə olunması ənənəsi zəngindir. Lakin “Roman”da özünəməxsus nazik bir süjetə malik olan poemanın əsasən biri digərinin davamı olan şeirlər üzərində qurulması nadir ədəbi hadisədir.

Hələ XX əsrin səksəninci illərinin sonlarından sürətlə dəyişməyə, hətta dağılmağa başlayan və tamamilə təzə məcrada yenidən qurulan dünya və ölkə artıq şairlər üçün “əzəldən yaranan tamaşa” səviyyəsində xalis lirika nümunələri yaratmağa çağıra bilmirdi. Artıq zaman ayrılıqda heç bir janrı ön sıraya çəkə bilmirdi. Həyatda, mübarizə yollarında, səngərlərdə olduğu kimi, ədəbiyyatda da janrların bir-birinə

köməyi, yardımı, birgə iştirakı zəruri bir tələbat kimi meydana çıxmışdı. Rəşad Məcidin yaradıcılığında özünü büruzə verən lirika ilə epik əlamətlərin birliyi Zamanın tələbatından doğan, yeni ədəbiyyatın qarşısında duran mühüm vəzifələrdən biri idi. Bu mənada Rəşad Məcid bir yaradıcı insan olaraq ən yeni dövr Azərbaycan ədəbiyyatının, şeirinin üslubunda doğulmuşdur. “Roman” liro-epik poeması müstəqillik dövrü Azərbaycan ədəbiyyatının müasir tələblərinin və yeni üslubunun mükəmməl bir nümunəsidir. Bu romanda lirik ədəbi növün qoşma, gəraylı, heca vəznli şeirin beşlik, altılıq, yeddilik poetik formaları və sərbəst vəznli şeirlər hadisələrin axarına, obrazların ovqatına uyğun olaraq “iştirak edir”, ya da hadisələri və düşüncələri dərinləşdirir və inkişaf etdirirlər. Epik təhkiyədən də müxtəlif üsullarla istifadə həm “Roman”ın ifadə tərzini zənginləşdirir, həm də ayrılıqda müstəqil bədii nümunələr kimi səsləşən şeirləri bir-birilə əlaqələndirir və hərəkətə gətirir. “Roman”ın kulminasiya nöqtəsi hesab etdiyimiz “Səndən bir söz çıxanacan” şeiri həm ümumən Rəşad Məcid yaradıcılığının, həm də konkret olaraq bu epik xarakterli lirik-romantik poemanın özünəməxsus səciyyəvi ideya və üslub imkanlarını nümayiş etdirir. “Roman”ın qəhrəmanı eşqinə – andına sadiqliyin son həddinə qədər dözüm və inam göstərir. Mənəvi iztirabların ən çətin anlarında “Cavan” adı ilə təqdim olunan naməlum oğlanın varlığı bəlli olanda özünüittiham kimi meydana çıxan daxili monoloq əsərdəki bütün gərginliyi qabarıq şəkildə ifadə edir:

Hər nə dedim, dümdüz dedim,
Gecə dedim, gündüz dedim.
Mən bir kitablıq söz dedim
Səndən bir söz çıxanacan.
***
…Ay düşüb, yerə enərdi,
Günəş bezərdi, sönərdi.
Daşlar da dil öyrənərdi

Səndən bir söz çıxanacan.
Ayrılıq və ondan sonrakı mənəvi iztirabların təsviri ilə “Roman” sona çatır. Lakin əsər tamamlansa da, “Roman”da təsvir olunan kiçik macəranın həyəcanları bitmir. Oxucudan ötrü düşünmək üçün bir romanlıq da təəssüratlar qalır. Bu mənada “Tapdım” epiloqundakı “Beş ildi xəbərim yox idi ondan, İtmiş ürəyimin yerini tapdım” misraları ilə təkcə bir əsərin qəhrəmanının taleyində yox, bütövlükdə insanın mənəvi ucalığının işığında “Roman” davam edir.
Ümumiyyətlə, “Roman” liro-epik poeması insanın mənəvi bütövlüyünə inam haqqında dəyərli bir epitafiyadır. “Roman” – şeirlə yazılmış macəravari serialdır. Liro-epik poema janrında yazılmış “Roman” mövzu və mahiyyət etibarilə insanın mənəvi bütövlüyünün və ucalığının romanıdır. “Roman” – Rəşad Məcidin liro-epik şeirlərinin bütöv bir silsiləsidir. Nəhayət, “Roman” Rəşad Məcidin ədəbiyyatda, şeirdə bədii möhürüdür və özünütəsdiqidir.
***
Rəşad Məcidin yaradıcılığında 2004-2010-cu illər yeni mərhələyə keçid üçün ciddi bir hazırlıq dövrü kimi diqqəti cəlb edir. Bu illərdə Rəşad Məcid daha çox publisistika ilə məşğul olmuşdur. Publisistika, qəzetçilik işi onu həyatın, cəmiyyətin daha da dərinliklərinə nəzər salması, mühiti və insanları bütün reallıqları ilə tanıya və tanıtdıra bilməsi üçün şərait yaratmışdır. Bundan başqa, 2004-cü ildə qırx yaşında Azərbaycan Yazıçılar Birliyinin katibi vəzifəsinə seçilməsi istər-istəməz təşkilati işlərə, ədəbi mühitin yenidən qurulması vəzifələrinə üstünlük verməsini tələb etmişdir.
2009-cu ildə nəşr etdirdiyi “Əlvida və salam” kitabında toplanmış publisistik məqalələr, yol qeydləri və esselər Rəşad Məcidin yaradıcılığında yeni mərhələyə keçidin növbəti məşqləridir. Azərbaycan Yazıçılar Birliyinin nəzdində yaratdığı Gənc Ədiblər Məktəbində yeni ədəbi nəslin böyük ədəbiyyata hazırlanması qayğıları ilə ciddi surətdə məşğul olması zərurəti

onun özünü də bədii yaradıcılıq baxımından yenidən səfərbər etməyə sövq etmişdir. Rəşad Məcidin yaradıcılığında 2011-ci ildən etibarən başlanan yeni dalğa həmin ideya-sənətkarlıq axtarışlarının, daxili-mənəvi səfərbərlik səylərinin qanunauyğun məntiqi davamıdır.
Rəşad Məcidin 2011-ci ildən sonrakı mərhələdə yaranan şeirlərini aşağıdakı kimi qruplaşdırmaq: 1) “Roman” liro-epik poeması ilə səsləşən yeni şeirlər; 2) “Dastan” qrupu şeirləri; 3) Hekayə poetik silsiləsi.
Müxtəlif mətbuat orqanlarında Rəşad Məcidin 2014-cü ildə oxuculara təqdim etdiyi yeni şeir silsiləsinin bir hissəsi ilk baxışda sanki onun “Roman”ının yazıldığı, yaxud çap olunduğu vaxt unudulub kitabına daxil edilməmiş parçalar təəssüratı yaradır. Başqa bir istiqamətdən baxsaq, yeni silsiləyə daxil olan “Sənsən”, “Bəsdi”, “Bəsdi nədir”, “Əlac”, “Çıxmışam”, “Məni anla”, “Daha”, “Mələyim, iblisim”, “Sənə sarı”, “Məni”, “O” şeirləri sanki “Roman”a sonradan yazılmış əlavələr kimi görünür. Həmin şeirlərdən hər birini çox asanlıqla “Roman”ın kompozisiyasında münasib məqamlarda oturtmaq olar. Bu şeirləri ayrı-ayrı bölmələrə daxil etməklə “Roman”ı daha da qüvvətləndirmək mümkündür. Bununla belə, təzə şeir silsiləsində “Roman”a münasibətdə başqa bir meyil daha qabarıq şəkildə hiss olunur. Sanki bu şeirlər yeni bir “Roman”ın ilkin parçalarının əlyazmalarıdır. Bu şeirlərin əksəriyyəti fərqli bir süjet ətrafında birləşir. Şeirlərdən get-gedə süjet xəttinin dərinləşdiyi və genişləndiyi müşahidə edilir. “Roman”dakı şeirlərin çoxusu daha çox “Mən”ə – lirik qəhrəmana aiddir. Yeni silsilədə isə üçüncü şəxs kimi “O”ya ağırlıq verilib. Bu “O” “Roman”dakı Uşağa bənzəsə də, onun eynisi deyildir. Rəşad Məcid “O”nu “boynuna biçilən kəfəni”, “dar ağacı”, həm də “xilası”, “mələyi və iblisi”, lirik qəhrəmanı “gah göydə yaşadan, gah yerə çırpan” qüvvə kimi təqdim edir. “Roman”dakı Uşaqla müqayisədə “O” ilə münasibətlər xeyli dərəcədə aydındır. “O” – silsiləsi eşqinə vəfalı lirik qəhrəmanın əbədi sevdasının

nəğməsidir. Yeni şeirlərdəki lirik qəhrəmanda “Roman”dakı ümidsizlik, sentimental əhval-ruhiyyə nikbinlik və inam hissləri ilə əvəz olunmuşdur:

Üstümdə Tanrı nəfəsi,
Üzümdə sevda həvəsi
Dağıtmışam dar qəfəsi
Ölməmişəm, sağ çıxmışam.
***
Keçdim çətin mərhələdən,
İnildədi, əsdi bədən.
Bu on ballıq zəlzələdən
Bir boy qalxıb sağ çıxmışam.

Fikrimizcə, “O” – şeir silsiləsi daha dərin həyat həqiqətlərini və daha yüksək sənətkarlıqla ifadə etməklə təzə bir roman meydana qoymaq cəhdinin, niyyətinin poetik ifadəsidir. O – “Roman”dakı Uşağın davamının, “Mən” isə əsərin yeni qəhrəmanının inkişafının fərqli əks-sədasıdır. Bu, bir-birinə üzvi surətdə bağlı olan, lakin hadisələrin inkişafından doğan təzə əsərdir. Yeni silsilənin lirik qəhrəmanı “Roman”dakı kimi “ürəyinin yerini” beş ildən sonra tapan romantik bir gənc yox, artıq əlac haqqında düşünən, “ağrıların min iz yeri” yaddaşında sızlasa da çarə axtaran, qərar qəbul edən təpərli, ürəkli bir cavandır:

O-dur sənə dərman, ilac,
Gördün ki, yox başqa əlac.
Əlindən tut, üstünə qaç,
Diri tərpən, di tez yeri.

Rəşad Məcidin “Hekayə” adlandırdığı şeirlər onun yaradıcılığında “Roman”dan “Dastan”a keçid funksiyasını daşıyır. Bu şeirlər Azərbaycan süjetli lirikasının poetik hekayəsidir. “Roman”da özünü göstərən nağılvari təhkiyə “Hekayə” şeir silsiləsində konkret süjetli lirika vasitəsilə təkcə hadisəni yox, həm də baş verənlərə münasibətin poeziyasını yarada bilmişdir. Bu baxımdan Rəşad Məcidin “Həsrət” şeiri

Azərbaycan süjetli lirikasının orijinal bir nümunəsi sayılmağa layiqdir.
Rəşad Məcidin yaradıcılığında “Roman” kimi “Dastan” da şərti ad olub, lirik qəhrəmanın inkişaf edərək yetkinləşmiş obrazını təqdim edən fərqli bir əsərin mahiyyətini ifadə edir. Hadisələrin epik tərəfinin bir qədər də qüvvətlənməsi, qəhrəmanın hərəkət və davranışlarındakı ayıqlıq və qətiyyətin, çətin vəziyyətlərdən çıxmaq qabiliyyətinin nisbətən geniş təsviri “Roman”la müqayisədə yeni əsərin “Dastan” adlandırılmasını şərtləndirmişdir. Bu mənada “Dastan” əsəri “Roman” liro-epik poemasındakı hadisələrin davamı yox, həmin əsərlə səsləşən, lakin qəhrəmanı fərqli ampluada təqdim edən yeni romandır. “Roman”da olduğu kimi, 2014-cü ilin “Dastan” qrupuna aid olan poetik sovqat da müəyyən süjet xətti ətrafında cəmləşən lirika nümunələri olmaqla bərabər, həm də hər biri ayrıca, müstəqil şeirlərdən ibarətdir. Silsiləyə daxil olan “Sənsən”, “Mələyim, iblisim”, “Üzünə qurban” şeirlərində lirika o qədər dərindir ki, onları yalnız Rəşad Məcidin yaradıcılığına çox yaxından bələd olanlar hər hansı bir süjetin tərkib hissəsi kimi görə bilərlər. Şeirlərdən süjet düzəltmək artıq Rəşad Məcidin şeir yaradıcılığının oturuşmuş bir sistemidir. Hər biri müstəqil poetik nümunə olan ayrı-ayrı şeirlər vasitəsilə geniş süjet xətti yaratmaq, kompozisiya qurmaq Azərbaycan ədəbiyyatında ilk dəfədir ki, Rəşad Məcidin yaradıcılığında bu qədər davamlı olaraq təzahür edir. İlk şeir dəftərində, “Roman” liro-epik poemasında nəzərə çarpan və şeirdən-şeirə inkişaf edən süjet xətti yaratmaq xüsusiyyətinin “Dastan” qrupu şeirlərində də açıq-aşkar görünməsi bu tip ifadə vasitəsinin Rəşad Məcidə məxsus fərdi üslubi keyfiyyət olduğunu təsdiqləyir.
Son onilliyin şeir silsiləsində “Roman”a yaxın olmayan, “Dastan”dan xaric şeirlərdə də Rəşad Məcidin yaradıcılıq təkamülü aydın surətdə müşahidə olunur. Əvvəla, yeni mərhələdə şairin yaradıcılığında ictimai motivləri genişləndirmişdir. Rəşad Məcid poeziyada mənəvi

münasibətlərdən daha çox, ictimai prosesləri mənalandırmağa çalışmışdır. O, artıq indiyə qədər “cavabını tapmadığı suallar”ı bədii yaradıcılığının əsas obyektinə çevirmişdir. Yeni mərhələnin şeirləri illərdən bəri onu daxilən “topalaşıb qurd kimi gəmirən”, uzun vaxt ərzində “düşünməkdən yağmalandığı” məsələləri diqqət mərkəzinə çəkir. “Göz yaşı” şeirində Rəşad Məcid ölkə səviyyəsində itki sayıla biləcək dəyərlərin ağısını oxuyur. O, artıq “ölkədə, dünyada nə yenilik var” sualını poetik baxımından mənalandırmağı vacib sayır, “mənim danışmağa öz xəbərim var” deyərək dünyaya biganə qalmadan milli maraqlara cavab verən sualların ədəbiyyatını yaratmağa üstünlük verir. Rəşad Məcid bütövlükdə bədii yaradıcılıqda, o cümlədən də şeirlərində daha çox yazıçı-vətəndaş kimi çıxış edir. Bir çox şeirləri müstəqillik dövrü Azərbaycan vətəndaşlıq poeziyasının layiqli poetik nümunələri sayıla bilər.
Yaradıcılığının XXI əsr mərhələsində vəznindən və mövzusundan asılı olmayaraq, Rəşad Məcid bütün hallarda şeirlərində vətəndaşlıq duyğusunu özünəməxsus lirika ilə ifadə etməyi zəruri hesab edir. Onun əksər şeirləri ictimai motivlərin bədiiliklə sintezindən yaranmışdır. Dərin ictimai məzmuna malik olan “Bayrağım” şeiri müstəqil dövlətinin bayrağına dərin sədaqətini ifadə edən şairin həm də millətinə və ölkəsinə xidmət edən sənətin, ədəbiyyatın bayrağını gələcəyə aparmaq andının dolğun poetik ifadəsidir.
“Bayrağım” şeiri həm də “Dastan”ın epiloqu kimi səslənir. Rəşad Məcid şeirinin estetik idealı kimi ifadə edilən ağ atlı oğlan ölkənin bütövlüyünün və xalqın milli-mənəvi varlığının etibarlı keşikçisidir. Bu ağ atlı oğlan – əslində yurdun, torpağın sahibidir. “Köç yolunda at üstündə” doğulan, qəlbində bahar çağlayan ağ atlı oğlanın idealı isə “işləri qayadan-daşdan” keçən xalqına xoş günlər bəxş etməkdir. Rəşad Məcid “ümidi işıqlı”, “yolları açıq” təsvir etdiyi ağ atlı oğlanında xalqın bütün gücünü cəmləşdirir:
Köç yolunda, at üstündə

Qəfil körpələr doğulub,
Hamıdan sağlam oldular,
İldırımla savaşdılar,
Küləklərlə vuruşdular,
Ağ atlı oğlan oldular!

Rəşad Məcidin ağ atlı oğlanı müstəqillik yollarında inamla irəliyə gedən Azərbaycanın dövlət bayrağının keşiyindədir:

Səni ən çətin
Günlərimdə qorudum.
Beynimə həkk edib,
Ürəyimə sarıdım.
Mahnımda,
Nəğməmdə gizlədim.
Aya baxıb xatırladım,
Ulduzumu sevdim.
Üç rənginə öyrəndim,
Hər üzünü sevdim.
Hücumdan, həmlədən qorudum,
Küləkdən, tufandan keçirdim.
Bir gün qaldırdım başımın üstünə
Saxladım,
Əymədim.

Qarabağ mövzusunda yazılmış ən yaxşı şeirlərin sırasında Rəşad Məcidin "Şuşa" və "Cıdır düzü" şeirlərinin də özünəməxsus yeri vardır. Çox səmimi duyğular və orijinal bədii vasitələr əsasında 2021-ci ildə yazılmış "Şuşa" şeiri dərhal mahnıya çevrilmişdir. Rəşad Məcidin "Şuşa" şeiri Azərbaycan poeziyasının Şuşanaməsinin diqqətəlayiq poetik səhifəsidir.

Min şəhər adı var dillər əzbəri,
Adların ən üstün adıdı Şuşa.
Musiqi notudur cüt hecasıyla:
Dilimin şəhdidir, dadıdı Şuşa.

***

Ciyərdə nəfəsdir, damarda qandır,

Ruha qanad verən sirli məkandır,
Bilib eşidəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.
***
Qoynuna hər gələn yüz xəyal eylər,
Qıraqda qalanlar qeylü-qal eylər,
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

Bütövlükdə Rəşad Məcidin şeir yaradıcılığı torpaq qoxulu, Vətən ətirli poeziyadır. Rəşad Məcidin estetik idealı mərdanəliyin, bütövlüyün, milli düşüncənin, vətənpərvərliyin və müstəqil dövlətçiliyin daşıyıcısı olan lirik-romantik qəhrəmandır. Bu lirik qəhrəmanın ayağı odlu torpaqdadır, başının üstündə isə dövlət bayrağı dalğalanır. Vətən torpağı ilə dövlət bayrağının vəhdəti Rəşad Məcidin estetik idealının mahiyyətidir.

***

Məlum olduğu kimi, bədii nəsr sahəsinə Rəşad Məcid az müraciət etmişdir. Hələlik onun bizə məşhur “10 sentyabr” və “Cənnət dərəsi” hekayələri məlumdur. Qeydlərindən aydın olur ki, “Tüstü” adlı bir hekayəsi isə nə vaxtsa hansı redaksiyadasa itib. Lakin bu qədər azsaylı hekayələr də Rəşad Məcidin nəsr imkanları haqqında fikir söyləməyə, söz deməyə şərait yaradır. “10 sentyabr” hekayəsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatında hekayə janrının ən yaxşı nümunələrindən biridir. Bu, yeni tarixi mərhələdə kiçik hekayənin böyük nümunəsidir. “10 sentyabr” kiçik hekayəsində dövrün böyük mətləbləri öz əksini tapmışdır. Hekayədə böyük dövlətlər və kiçik xalqlar kimi ciddi bir problem sadə bir əhvalat əsasında həll edilmişdir. Rəşad Məcid hekayədə kiçik cizgilərlə xarici vətəndaşın portreti də cızılmışdır: “Gombul, balacaboy kişi. Kişinin ovurdları işləyir. Əslində… paxlavanı çeynəmir, bütöv-bütöv udurdu…

Bayaqkı gombul kişi onu görən kimi “pliz, pliz” deyib

qucağındakı qıvrımtüklü iti sığallaya-sığallaya dəhlizin əks tərəfinə keçdi… Kişinin getdiyi tərəfdən bayaqkı qadın çıxıb ona yaxınlaşdı… Alıb çantanı açdı, dollarları saydı. Əlindəki şax əsginaslara işarə edərək:
– Çim it alacaq.
Sonra pulları çantanın içinə qoyub əlini uzatdı:
– Sağ ol! Minnetddar-am!”.
Rəşad Məcidin portretin zahiri görkəmi ilə daxili aləmi arasında yaratdığı uzlaşma oxucunun “xarici qonaq” haqqında obyektiv nəticə çıxarmasına imkan yaradır.
“10 sentyabr” hekayəsindəki taksi sürücüsü Akif müasir mərhələdə Azərbaycan ədəbiyyatında kiçik adamın böyük obrazıdır. XX əsrin əvvəllərindəki “kiçik” adam obrazlarından fərqli olaraq, artıq müəyyən peşə sahibi olan, zavodda işləyib mükafatlar alan, dəyişən zəmanənin “taqəzası” ilə iş yeri bağlanan, çətinliklərlə üzləşən Akif halallığı, zəhmətkeşliyi, sədaqəti və səxavəti ilə səciyyələnən obrazdır. Taksi sürücüsü Akif cəmiyyətdə gedən ictimai-siyasi proseslərin yaratdığı böhranın doğurduğu kiçik adamın bütün taleyini daşıyır və psixologiyasını özündə əks etdirir. Akif keçid dövründə baş verən mənəvi aşınmaları adlayıb keçən, sıxıntılara düçar olsa da, ləyaqətini uca tutmağı bacaran azərbaycanlı obrazıdır.
Cəmiyyətdə xaos, çaşqınlıq dövrü kimi səciyyələndirilən həmin mərhələnin adamlarının ədəbiyyatda daha çox mənəvi böhranından, aşınmasından yazmaq meylinin üstün olduğu vaxtda Rəşad Məcidin sabit mənəviyyata malik kiçik adamın böyük dəyərlərini təqdim etməsi ədəbi prosesin də axarına təsir edən əhəmiyyətli hadisədir.
1987-ci ildə qələmə alınmış “Cənnət dərəsi” hekayəsi Rəşad Məcidin bədii nəsr sahəsində ilk addımı olsa da, həm də “10 sentyabr” hekayəsi üçün məşq funksiyasını daşıyır. Təhkiyə və təsvirlərindəki doğmalıqdan başqa, vətənpərvərlik notları bu hekayələri yaxınlaşdırır. “Cənnət dərəsi”ndə ifadə olunan kəndə qayıdışa çağırış “10 sentyabr” hekayəsindəki milli-

mənəvi dərketməyə qayıdışın start nöqtəsidir. “10 sentyabr” hekayəsi ilə Rəşad Məcid həcm etibarilə kiçik bədii forma daxilində böyük və dərin ictimai mətləbləri ifadə etmək bacarığını nümayiş etdirir. Bu mənada ümumi yaradıcılığının fonunda nəzər salsaq, “10 sentyabr” hekayəsi Rəşad Məcid nəsrinin “Roman”ıdır. Sabitləşmiş, inkişaf edən və dünya ilə üz-üzə olan yeni Azərbaycanda cəmiyyət həyatının epik mahiyyətinin gerçək romanı “10 sentyabr” hekayəsinin bətnində müşahidə olunur. Bu hekayənin on xarici dilə tərcümə edilərək bir kitabda çap edilməsi qlobal məkanda həm müasir Azərbaycan nəsrinin indiki səviyyəsinin dünyaya təqdim edilməsi baxımından əhəmiyyətli hadisədir. “10 sentyabr” hekayəsi ilə Rəşad Məcid böyük ənənəsi olan Azərbaycan nəsrinə layiqli bir əlavə gətirə bilmişdir. Rəşad Məcid bir hekayə ilə – “10 sentyabr” hekayəsi ilə müasir Azərbaycan ədəbi mühitində nasirlik səlahiyyəti qazanmışdır.

***

Hansı istiqamətdən baxmağımızdan asılı olmayaraq, Rəşad Məcid daha çox mətbuat aləmindəki geniş fəaliyyəti və publisistikası ilə görünür. Rəşad Məcidin publisistikası onun nəsri ilə jurnalistikası arasındakı xüsusi bir yaradıcılıq hadisəsidir. Günün nəbzindən doğan çoxsaylı məqalələr yazmaq meyli jurnalistika fəaliyyəti baxımından Rəşad Məcid daha çox naşirdir. Rəşad Məcidin Baş redaktoru olduğu “525-ci qəzet” müstəqillik dövrü Azərbaycan mətbuatının inkişafının mükəmməl bir göstəricisidir. “525-ci qəzet” Azərbaycanda ictimai-siyasi mətbuatla ədəbi mətbuatın hər ikisinin funksiyalarını birlikdə daşıyan və yüksək peşəkarlıqla inkişaf etdirən nadir qəzetçilik nümunəsidir. Bu mənada “525-ci qəzet” yeni tipli jurnalistika məktəbi yaratmış mətbuat orqanıdır. Çoxaspektli mətbuat orqanı olan “525-ci qəzet” Rəşad Məcidin Azərbaycan milli mətbuatının inkişafında tarixi xidmətidir.



Bununla belə, Rəşad Məcid həm də özünəməxsus publisistikası olan qəzet adamıdır. Publisistikası konkret problemlər ətrafında araşdırmaların və mühakimələrin ifadəsi əsasında formalaşır. Publisistikasındakı analitik təhlil həyatı, prosesləri, insanları daha dərindən göstərməyə, obyektiv nəticələr çıxarmağa şərait yaradır. Müxtəlif illərdə yazılmış "Unudulmamaq haqqı", "Yeni paytaxt ehtiyacı", "Səfərin təzəsi, dostun köhnəsi", "Əlvida və salam", "Ağ dənizin duzu" və sair kimi publisist məqalələri müasir cəmiyyətin doğurduğu konkret məsələlər ətrafında müşahidələr və mühakimələrdir. Publisistikasında Rəşad Məcidin bir ziyalı-vətəndaş olaraq aydın mövqeyi ifadə olunur. Publisist məqalələrindəki təmkinli və aydın mövqeyə malik Rəşad Məcidlə cəmiyyətdən, gündəlik həyatdan tanıdığımız Rəşad Məcid bir-birini tamamlayır. İctimai-siyasi və ədəbi-elmi mühiti tam olaraq birlikdə görməyi

və dəyərləndirməyi bacarmaq, daim irəliyə doğru dərk olunmuş obyektiv baxış Rəşad Məcidin jurnalistika fəaliyyətinin və publisistikasının mahiyyətini təşkil edir.
Rəşad Məcidin siyasi publisistikasında da müəyyən mənada bədiilik var, dərin səmimiyyət ifadə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə 2013-cü ildə iki görüşdə – Milli Mətbuat Günündə və dövlət başçımıza “Jurnalistlərin dostu” mükafatının təqdim olunması mərasimindəki çıxışları bir media təmsilçisindən çox, yüksək ziyalı – vətəndaş düşüncəsinin təbii və səmimi ifadəsidir. “Dəlicəsinə” kitabına “Mətbuat tarixinə yazılacaq böyük hadisə” və “Dostluğun böyük nümunəsi” adları ilə daxil etdiyi mətnlərdəki müraciət, xitab üstündə qələmə alınmış məqalə əhəmiyyətli publisistika nümunələridir.
Daha bir publisistika nümunəsində – “İdarəçilik Akademiyasında jurnalistika dərsi” məqaləsində “yaxşı nədir, pis nədir” sualına verdiyi şərhlər həm də Rəşad Məcidin mətbuata, publisistikaya, əslində, bütövlükdə həyata münasibətindəki sabit və aydın mövqeyi dolğun şəkildə əks etdirir: “Yaxşı nədir, pis nədir” sualının cavabına toxunmuşkən qeyd edim ki, əslində, istənilən məsələyə ən azı iki yanaşma var. Cəmiyyətdən özünü təcrid edən, ətrafında baş verənlərə biganə yanaşan insanlar, adətən, bu seçimdə daha asan olana – mənfi çalara, neqativə üstünlük verirlər. Yaşadığı topluma, onun problemlərinə laqeyd qala bilməyənlər, lokal yox, mümkün qədər qlobal görünən, ölkəsinin, Vətəninin işıqlı gələcəyini arzulayanlar isə mənfilikləri görüb qeyd etməklə yanaşı, cəmiyyətdəki müsbət tendensiyaları da qabartmağa, ətrafına pozitiv baxmağa çalışırlar”.
Qarabağa Böyük Qayıdış mövzusunda 2021-2022-ci illərdə yazdığı məqalələr bu mövzuda meydana çıxan ən yaxşı publisistika nümunələridir. “Şuşa havasının gətirdiyi nağıl”, “Şuşa gör nələr eylər”, “Gecikmiş Ağoğlan bələdçiliyi”, “Şuşaya getmək” kimi məqalələri publisistikanın mükəmməl

Qarabağnamələri adlandırıla bilər.
Son illərdə yaratdığı "Qələmsiz yazılanlar" status-esseləri ilə Rəşad Məcid Azərbaycan publisistikasında tam yeni bir istiqamət yaratmışdır. Rəşad Məcidin statusları və sms-esseləri müstəqillik dövrü Azərbaycan sosial şəbəkə publisistikasında yeni hadisədir. Bu statuslar və sms-esselər yeni tarixi mərhələdə Azərbaycan publisistikasının feysbukdakı stenoqramıdır. "Qələmsiz yazılanlar"la Rəşad Məcid geniş mənada sosial şəbəkə ədəbiyyatını, xüsusən də feysbuk publisistikasını ilk dəfə olaraq ədəbi dövriyyəyə daxil etmişdir. Onun bir çox sms-statusları kiçik hekayə təəssüratı yaradır. Rəşad Məcid status esse və sms miniatür hekayəsinin yaradıcısıdır.
Bütün bunlardan başqa, "525-ci qəzet" vasitəsilə Azərbaycanda publisistikanın yeni nəslinin formalaşdırılmasına açdığı geniş meydan, verdiyi böyük dəstək də jurnalistikanın inkişafı yollarında izi qalacaq hadisədir. Publisistikasındakı özünəməxsus sənətkarlıq Rəşad Məcidin bu sahəyə qəzetçiliklə bədii yaradıcılıq arasında xüsusi bir fəaliyyət növü kimi yanaşdığını göstərir.
Rəşad Məcid bir ədəbi şəxsiyyət olaraq bütün yönləri ilə yaradıcı olan, axtarışlarının ardıcıllığı və bədii təfəkkürünün orijinallığı və genişliyi, baxışlarının və inamının bütövlüyü ilə fərqli görünən kamil və professional bir Azərbaycan yazıçısıdır. Rəşad Məcidin simasında milli təfəkkürlə ədəbiyyat düşüncəsi və aydın siyasi baxış vəhdət təşkil edir.

**İlkin mənbə: edebiyyatqazeti.az**



**Zaur USTAC**

## MÜTALİƏ (MÜTALİYƏ) NİYƏ VACİBDİR?!

Salam çox dəyərli oxucum, bu yazını “beşikdən qəbrədək oxumaq lazımdır”, “oxumaq, oxumaq yenə də oxumaq” və s. çox məşhur olan buna bənzər digər mütaliəyə, elm öyrənməyə təşviqedici kəlamların açıqlaması kimi də qəbul etmək olar. Niyə görə elmdən, kitablardan bircə damla nəsə götürməyi bacarmış şəxslərin hamısı oxumağı, mütaliəni belə ciddi-cəhdlə məsləhət görmüş, təbliğ və təşviq etmiş, hətta bəzi hallarda əmr kimi buyurmuşdur? Bunun bircə səbəbi var. Necə ki, dövrümüzdə kimsə maraqlı, əyləncəli bir yerə səyahət edəndə və ya ucuz və sərfəli yerdə alış-veriş edəndə, yaxşı həkimə rast gələndə və s. bu siyahını ən xırda məişət problemlərimizi həll etdiyimiz yerlərin, kəslərin təbliğinə qədər uzatmaq olar. Bu barədə danışmağı, yaxın ətrafındakı dostu-tanışı, doğmaları məlumatlandırmağı, onlara xeyir verməyi, onlar üçün faydalı olmağı özünə borc bilir, oxumağın, mütailənin təbliği də eyni bu qəbildən olan həyati əhəmiyyətli bir hadisə olduğu üçün, bunun xeyrini, faydasını görmüş hər kəs onun təbliğ və təşviqini özünə borc bilmişdir. Bəs nədir mütaliənin faydaları? Bu kiçik yazıda mümkün qədər yığcam və sistemli şəkildə bir neçə kəlmə də mütaliənin, bilgili, məlumatlı olmağın faydası barədə mən danışmaq istəyirəm. Əvvəlcədən qeyd edim ki, çalışacam ancaq və ancaq praktik

və həyati söhbət olsun. Sizi inandırım ki, bu ən ümdə, çox vacib məsələdir. Xüsusən də olduqca geniş imkan və resurslara malik müasir dövrümüzdə bu prosesdən kənarda qalmaq sadəcə olmaz! Bunu belə qəbul etmək lazımdır. Bir söz də əlavə etmək istəyirəm çoxumuzun tez-tez işlətdiyi "günahdır" kəlməsini…. Bəli, bəli kitab, jurnal, qəzetlərdən əlavə əlimizin əltında internet kimi çoxumuzun bəlkə də təsəvvür belə edə bilməyəcəyi informasiya zənginliyi dövründə oxumamaq, mütaliə etməmək, öyrənməmək, öz həyatını yüngülləşdirməmək sadəcə "günahdır". Vəssalam! Keçək əsas məsələyə, nə verir mütaliə bizə? Birinci ən ümümi cavab, əlbətdə, məlumatlı olmaq ilk növbədə həyatımızı, gündəlik yaşam tərzimizi asanlaşdırır. Sizə deyərdim ki, əhəmiyyətli dərəcədə yüngülləşdirir. Bizi izafi xərclərdən qoruyur. Və başqa belə çoxlu həyati misallar gətirmək olar. İndi çalışacam ki, bu barədə mümmkün qədər sistemli və yığcam danışım. Bir insan ömrünü mütaliə baxımından beş hissəyə asanlıqla ayırmaq olar:

- **Uşaqlıq,**
- **Yeniyetməlik,**
- **Gənclik,**
- **Orta yaş dövrü,**
- **Ahıllıq.**

Keçək açıqlamalara, uşaq hələ məktəbə getməzdən əvvəl indiki müasir vasitələrin zənginliyindən də istifadə etməklə, sözləri olmasa belə şəkilli kitablarla tanış olması, oynaması onlara baxıb öz-özünə hekayələr uydurması, danışması çox vacibdir. Çünki, o məktəbə gedəndə, artıq ilk kollektivə düşəndə danışmağa nəsə sözü olmalıdır. Sizi inandırım ki, nə qədər laqeyid, dəcəl uşaq olsa da o, oyuncaqlarının içində, stolun üstündə, televizorun, kompüterin, planşetin yanında hətta döşəmədə belə (qoy olsun onsuz da oyuncaqlar

bütün günü əl-ayağa dolaşır) olsa şəkilli kitab görsə, (indi olduqca bahalı pultlu maşınların, helikopterlərin, gəlinciklərin və s. birinin qiymətinə 2-3 dənə yaxşı möhkəm materiallardan hazırlanmış, tez xarab olmayan şəkilli kitablar almaq olar) uşaq götürüb onunla da maraqlanacaq, baxacaq. 3-4 yaşlarında bütün normal uşaqlar (daha inkişaf etmiş, hazırlıqlı uşaqları çıxmaq şərti ilə, onlar artıq oxumağı bacarırlar) şəkilli kitablara baxıb hekayələr uydurmağı, ordakı oğlanın və ya qızın yerində olmağı bacarırlar, istəyirlər, sevirlər. Yetər ki, onlara bu abu-havanı yaradıb sərbəstlik verəsən. Bir müddət oynadıqdan sonra isə təbii olaraq uşaq yazmağa və oxumağa can atacaq. Məktəbi gözləmədən uşağın digər tələblərini ödədiyimiz kimi bu təlabatı mütləq qarşılamaq lazımdır. Bunun üçün sadəcə 4-5 ay planlı və məqsədyönlü  şəkildə, məşğul olmaq uşağın bir ömür boyu qarşıda dayanmış əsas problemini kökündən həll etmək lazımdır. İnanın 3-5 yaş arasındakı bütün normal uşaqlara ən şoxu 1 il əziyyət, xərc çəkib sadəcə onu kitablarla, intrnetdəki axtarış sistemləri ilə tanış etməklə, kitablardan istifadə etməyi (yazıb oxumağı), sadə hesablamanı öyrətməklə məktəbə hazır şəkildə göndərsək onun bütün gələcək problemlərini həll etmiş oluruq. Məktəbə ən azı yuxarıda qeyd olunan dərəcədə hazırlıqlı və ondan daha yaxşı qaydada hazırlanmış şəkildə gedən  (kitablardan istifadə etməyi, mütailəni bacaran),  sərbəst çalışmaqda heç bir çətinliyi olmayan uşaq sizi bütün gələcək təhsil boyu izafi xərclərdən, təhsildən  sonra  (maşın almaq, işə düzəltmək, ev almaq, toy etmək kimi) isə daha böyük və vacib külli miqdarda sərfiyyatdan  xilas edəcək. Burada söhbət qismən maiddiyyatdan gedir çünki, bizim mental alaraq öz dəyərlərimiz var. Ancaq, burda əsas məsələ odur ki, bu hazırlıqlı uşaq gələcəkdə özü ya bunları qəbul etmək istəməyəcək, ya da ona ehtiyacı olmayacaq. Birinci sinifə gedəndə tam hazırlıqlı olduğu üçün bütün məsələlər ona asan və adi gəldiyindən  bütün həyatı boyu belə davam edəcək. Bura da

böyüyün öhdəçiliyi və vəzifəsi sadəcə nəzarət etməkdən ibarət olacaq. Bura qədər biz sadəcə uşaq vaxtı mütaliənin nə qədər vacib və önəmli olduğundan danışdıq. Bütün ibtidai siniflər boyu və ondan sonra da yeniyetməliyə qədər uşağı nəzarətsiz qoymaq olmaz! Bu dövrdə uşaqlar lüğətlərdən istfadə etməyi mütləq bacarmalıdırlar. Uşaq vaxtı mütaliə etmək hamıya vacibdir, gələcəyin ustasına da, müğənnisinə də, aşbazına da, hərbiçisinə də hamıya. Mütaliə nəticəsində uşaq istənilən mühit və kollektiv içərisində tam sərbəst şəkildə, kompleksiz öz yerini tapır, öz kiçik dünyasını qurur, ətrafını formalaşdırır. Məlumatlı uşaq yeni mühitə tez inteqrasiya edir, uyğunlaşır. Belə uşağın dostları çox olur. Bütün kollektivin sevimlisi olur. Bütün bunlar nəyin nəticəsidir? Əlbəttə, mütaliənin, oxumağın, araşdırmağın. Yeniyetməliklə uşaqlığın şərhəddinin harda bitib, harda başladığı dəqiq heç kimə məlum olmasa da uşaq böyüdükcə təbii proseslərin nəticəsində orqanizmdə istər fiziki, istərsə də mənəvi cəhətdən bir çox dəyişikliklər baş verir ki, məlumatlı və məlumatsız yaxud da bu dəyişiklikləri gözləyənlə, gözləməyən uşaq-yeniyetmənin hərəkətləri, özünü aparması, bu dəyişikliklərə reaksiyası da məntiqi olaraq müxtəlif olur. Elə bil bilirsən ki, dostun qonaq gələcək hazırlıqlı olursan. Ya da qəflətən qapı döyülür. Effekt təxminən eynidir. Məlumatlı yeniyetmə qeyri-adi heç nə yoxmuş kimi öz yaşam tərzini mütaliənin hesabına sakit şəkildə davam etdirir. Məlumatlı gənc (ancaq və ancaq davamlı mütaliə nəticəsində buna nail olmaq mümkündür) məktəbdən sonra ixtisas seçimində, təhsilin digər pillələrində, hərbi xidmətdə, ilk iş yerində də demək olar ki, heç bir çətinliklə üzləşmir. Məlumatlı gənclərin ailə həyatı da qat-qat daha uğurlu olur. Onlar kənar müdaxilələr və təbiətin maneçiliyi olmasa. Demək olar ki, seçimlərində çox az-az hallarda yanılırlar. Deyərdim ki, bu şeçim –gələcək ömür-gün yoldaşını seçmək dünyaya yenidən gəlmk qədər əhəmiyyətli bir hadisədir. Bu məqamda səhv etmək, doğuşu qəbul edən mamaçanın səni əlindən yerə

salmasına bərabərdir. Bəlkə də daha artıq. Deməli, mütaliə sayəsində gənc bu sınaqdan da mümkün qədər az risklə keçir. Mütaliə sayəsində 25-30 yaş arası hər bir gənc heç bir kömək olmadan öz işini tapmağa və ya qurmağa, özünü maşınla, evlə təmin etməyə qadirdir. Mütaliə heç vaxt bitmir. Ailə həyatı, məişət problemləri, qidalanma, yaşam tərzi, istirahət, ixtisas artırma, orta yaşlı hamının gündəlik qayğılarıdır. Mütaliə sayəsində oxumuş, savadlı, bütün həyatını tam təmin etmiş şəxslər daha sağlam yaşayırlar. Belə şəxslərin ailə büdcəsi daha dayanıqlı, qidaları daha sağlam, istirahətləri daha keyfiyyətli olur. Mütaliə isə bitmir ki, bitmir…. İnsan daim axtarışdadır. O, fasiləsiz olaraq, oxuyur, axtarır, araşdırır, hər şeyin ən yaxşisini, ən ucuzunu istəyir və mütaliə nəticəsində buna nail olur.

Mütaliənin bir mənfi cəhəti var ki, onu da ahıllıqda hiss edirsən… Bir vaxt oyanırsan ki, məktəb yoldaşlarından, xidmətdə bir yerdə olduğun dostlardan, tələbə vaxtından əlaqə saxladığın adamlardan demək olar ki, heç kim qalmayıb. Yada salmağa çalışırsan, çoxları qəfil ölümlə (gecə yatıb, səhər oyanmayıblar), qəzada, həbsdə, müxtlif səbəblərdən dünyaların çoxdan dəyişiblər, ya da heç bir məlumat yoxdur. Sağ qalanları barmaqla sayırsan…. Bu şəxslərin demək olar ki, hamısı səinin həmsöhbətlərin, həmfikirlərin, həmişə kitab alıb-verdiyin, hansısa yeni bir məlumat-xəbər barədə həmişə mübahisə etiyin yoldaşlardır…. Günlər keçir bir də görürsən daha zəng edən, statuslarına şərh yazan dost-tanışdan heç kim qalmayıb…. İstər-istəməz nə vaxtsa dostlarla mübahisədə dediyin söz düşür yadına; – “mütailə orqanizmin kompleks müalicəsi və sağlam həyat deməkdir” – üzünə qeyri-ixtiyari təbəssüm qonduğunu hiss edirsən….. O vaxt dostlardan bir çoxu bunla razılaşmasa da izahat verəndən sonra ki, mütaliə yeganə vasitədir ki, həm ruhun hən də cismin

bunla qidalanır, yekəqarın bankirdən başqa hamı bunla razılaşmışdı. Bankirin ki, isə sadəcə kor inad, həm də nankorluq idi.  O, artıq çoxdan unutmuşdu ki, say – hesabını itirdiyi var dövlətini özü ilə qonşudan alib geyərək oxumağa gəldiyi nimdaş pencəyin cibində gətirməmişdi…. Ani olaraq onun lap çoxdan olmuş yas mərasimi gözünün önünə gəlir, yaziq şəhərin mərkəzində tək qaldığı mənzilində qəflətən dünyasını dəyişmişdi. Ancaq işdə bir-neçə gün görsənməyəndən sonra mənzilində cansiz tapmışdılar. Yekə adam bir az da şişmişdi, evin qapısından çıxmadı. Zalım oğlu qapını da elə düzəltdirmişdi ki, sökmək  də mümkün olmadı. Həm də baxdılar ki, qapı sökülsə də oradan çıxmayacaq. Odur ki, pəncərələri söküb, kranla pəncərədən düşürdülər…. Təəssüf   hissi ilə başını bulayıb, düşünürsən yəqin ki, ən çox mütaliə edən elə mən olmuşam…..

***15.10.2016.  Bakı.***

*QEYD:*
*Bu yazı bu yazı başqa-başqa saytlarda dərc olunmaqla yanaşı müəllifin "Usubcan əfsanəsi" və "Qələmdar" adlı kitablarında müstəqil məqalə şəklində yayımlanıb.*



Şəfaqət CAVANŞİR

## SOLTAN BƏY ƏFSANƏSİ

*(hekayə)*

1977-ci il. Yay fəslinin birinci ayı.

Bəstəboy dədəmin çatmaqaşlarının altından bizə baxan sərt baxışlarını ilk dəfəydi ki, o gün yumşalmışdı.Əslində, atamın ürəyi yumşaq, mərhəmətli adam idi. Nənəmin, onun bir dediyini iki etmədiyindən bunu bilirdik. Şərq ölkələrində ataların övladları ilə, xüsusən, oğlanlarıyla pərdə saxlaması yazılmamış qanunlardandı. Sovet dövrünün uşaqları olsaq da, biz ata-analarımızı "dədə-nənə" deyə çağırardıq. İndi övladlarım mənə gah "ata" deyirlər, gah da "papa". Böyük qızımın kefi kök olanda "babacım", kefinə düşəndə " dədə" çağırar. Halbuki, dədəm həftəylə evə gəlməyəndə bacılarım dədəmin üzündən öpmək nədir, üz-üzə gəlməyə utanardılar. İndi ata-bala münasibətləri tamam fərqlidir. Nə isə, övladlarımın mənimlə dostluq münasibətləri məni qane edir. Nənəm əsgər getməyimi istəmirdi. Dədəm məndən böyük əmim oğluyla həyətdə, çəpərin yanında, məni qucaqlayıb ağlayan nənəmin qolları arasından nə vaxt çıxacağımı

gözləyirdi. Qadınlarla ayrılığın çətin olduğunu hansısa əsərdə oxumuşdum, xatırlamıram. Mənim ilk dəfə qadınlarla ayrılığım elə həmin vaxt; nənəm, bacılarım və qonşu kənddə ürəyimi aça bilmədiyim İlknurla olmuşdu. Darıxmaqdan başqa əzab çəkməyəcəyimi də yaxşı bilirdim. Dədələrimiz demişkən, "kişilik" məktəbini keçməyə gedirdim.
Nənəmin hönkürməsi axırda dədəmi hövsələdən çıxartdı:
-Bəsdir aaz, elə bil oğlunu ölümə göndərir. İki ildən sonra qayıdıb gələcək. Onda oğlunu məndən çox görəcəksən.
Nənəm yenə üzümü göz yaşıyla islatdı, qara, əliylə ağzını tutdu, asta addımlarla çəpər tərəfə, dədəmgilin yanına getdi. Bacılarım da nənələri kimi qollarını boynuma doladılar, dədəmin xofundan halallaşmaq uzun çəkmədi. Qardaşımla qucaqlaşanda isə mən kövrəldim, o sevindi. Böyük qardaşlar əsgər gedəndə kiçik qardaşlar özlərini əsl kişi kimi hiss edirlər. Həyət-baca, nənə-bacı, elə dədənin də özü onlara əmanət olur, qorumaq istəyirlər.
Həyət qapısından bir az uzaqlaşmışdıq ki, nənəm dədəmin gəlinlik vaxtı başına örtdüyü qara, güllü yaylığının ucuyla islanmış yanağını silib, hamamda çimməndə istifadə etdiyimiz sarı qulplu, iri parçla dolu suyu arxamızca tökdü.
-Sağ get, salamat qayıt, bala.
Qapı ağzına çıxan kim vardısa mənim üçün dua edirdilər. Təzə gəlinlər, ərlik qızlar evlərin pəncərələrindən, aynabəndlərdən baxırdılar. Nənəm ağızdolusu dualardan təzədən həvəsə gəldi.
-Sən allah, əynini isti saxla. Pis şeylərə baş qoşma. Xatadan-baladan uzaq qaç.
Əllərini belinə çarpazlayıb, qapıdan çıxandan bir dəfə də olsun başını yerdən qaldırmayan dədəmin geriyə dönməyi ilə nənəmin susmağı bir oldu. Nənəm həyətə girdi, biz yolumuza davam etdik. Kəndin avtobusuna mindik. Özüm pəncərə tərəfdə oturdum, yanından keçdiyimiz kəndləri, arxada qoyduğumuz dağları yaddaşıma köçürmək istəyirdim. Qubadlıdan çıxanda yolun sağ tərəfində "asfaltzavod" deyilən

bir yer vardı. El arasında ora “qır zavodu” deyirdilər. Bir neçə dəfə bizi məktəbdən buraya pambıq yığmağa gətirmişdilər, amma “qır zavoduna” kimi gəlib çıxmamışdıq. İndi birdən-birə buraya gəlib çatanda ürəyimdə bir nigarançılıq yarandı. Elə bildim ki, doğma el-obadan birdəfəlik çıxıb gedirəm. “Qır zavodu” yolun sağında olduğundan başımı çevirib sola baxdım, istəmədim mənə qaranlıq kimi görünən dəzgahları görəm. Sol tərəfdə ucsuz-bucaqsız günəbaxan, qarğıdalı qarışıq sahələri boy verirdi. Gözoxşayan günəbaxan gülləri Həkəri çayını görünməz etmişdi, ilin bu vaxtı Həkəri çayı çox könüloxşayan görünürdü, elə bil təzə gəlin kimi olurdu.
Bir anlıq ürəyimdən bir istək keçdi, qarşılıqsız olan ilk məhəbbətimlə – İlknurla yan-yana günəbaxanlar arasından özümüzə cığır açaq, çaya qədər gedək. Eşqə düşüb fikir çəkməyim dədəmin də gözündən qaçmamışdı. Elə bilirəm dərdimi dədəmə nənəm özü danışmışdı. Nənəmə demişdi: “Ona denən, kişi olanda, onsuzda kəndin qızlarından kimisə sevəcək”.
Hər dədəyə öz oğlu yaşadığı yerlərin qızları vurulacaq qədər əzizmiş. Boyu boyuma çatanda mən də elə bilirdim oğlumun dərdindən məhlənin qızlarının gecə yuxuları ərşə çəkilib.
Getməmişdən bir həftə əvvəl İlknura öz bacısı vasitəsilə ağ dama-dama dəftərin vərəqinə yazdığım ürək sözlərimi göndərmişdim. Çəpərin o biri tayından ətrafa baxa-baxa ondan cavab gözləyirdim. İlknur fikirləşdiyimdən də hazırcavab çıxdı. Bacısından; “Tülkü, bizdə sənə verməyə toyuğumuz yoxdur” – cavabını qaytarmışdı.
Qollarını bir-birinə dolamış, həyətin ortasında dayanıb özündənrazı halda gülümsəyirdi. Çox güman cavabına qarşılıq verməyimi gözləyirdi. Uzaqdan gözlərinə baxmağa çalışırdım. Ayaqqabımın ucuyla torpağı eşələdim, başımı təzədən qaldırdım, ona baxdım. Onda başa düşdüm ki, sevgi kişi olub-olmamağına baxmır. Sadəcə, qızlardan müsbət cavab almaq üçün mütləq kişi olmalısan. Hərçənd, dədəm kimi üz qırxmağı

orta məktəbdən başlamışdım, köynəyimin boğazıma yaxın düyməsini açanda sinəmin tüklərini görmək olurdu. Əsl qara oğlan kimi cəlbediciliyim varıydı, kişi deyildim. İki ildən sonra, “kişilik məktəbindən” qayıdanacan susmağa qərar verdim. Daxilən İlknurla sağollaşdım.
Əmim oğlu qolumu silkələdi, xəyallarımdan ayrılmalı oldum. “Qır zavodu”ndan sonra Zəngilandan gələn yola çıxıb bir xeyli irəliləmişdik, deyəsən yolun solunda qalan Şərfan kəndini keçirdik, bunu dirəyə yapışdırılmış lövhədəki addan oxudum. Kəndin qurtaracağında yol haçalanırdı. Burada avtobus sağa dönüb “Akara” yazılmış istiqamətdə yoluna davam elədi. Bir az getdikdən sonra gəlib “Akara” stansiyasına çatdıq. Dədəmdən öyrənmişdim ki, Akaranın əsl adı Həkəridir. Dəmir yolun çəkilişində və stansiya binasının tikilişində işləyən ruslar “Akara” dediklərindən bura belə adlandırılıb. Amma ahıl çağına çatmış ağsaqqallar, qocalar buraya “Həkəri” deyirdilər.
Biz stansiyaya çatanda orada çoxlu adam toplaşmışdı; kimisi əsgər gedirdi, kimisi yola salırdı, kimisi də maraq üçün vağzala çıxmışdı. Elə bu zaman qarnından “evin eyvanı, kişinin qarnı” məsəlini xatırladan hərbi komissarın nümayəndəsi praporşik Cabbarov səsgücləndirici ilə elan verdi:
-Qubadlıdan adını çəkdiklərim bir-bir yaxınlaşsınlar.
“Mirzəyev Soltanbəy Həsən oğlu” eşidəndə yaxınlaşdım. Praporşik çəpəki məni süzdü.
-Adın nədir sənin? – deyə astadan soruşdu.
-Soltanbəy. – Elə mən də astadan cavab verdim.
-Yeri, yeri dur cərgəyə. Bəyə bir bax! – Rişxəndlə dilləndi.
Siyahıda adlar oxunduqdan sonra bizi cərgəyə yığdılar və bir saatdan çox beləcə saxladılar. Axşamüstü idi artıq, “Qafan – Bakı” qatarı gəldi və bizim üçün ayrılmış sərnişin vaqonuna mindik. Bizi yola salmağa gedənlər isə başqa vaqonlara bilet almışdılar, bilet ala bilməyənlər də vaqon bələdçiləri ilə dil tapıb yerləşəcəkdilər.
Bələdçinin dediyinə görə Bakıya səhər tezdən çatmalıydıq,

amma alatoranlıqda bizi yuxudan oyadıb qatardan düşürtdülər. Öyrəndik ki, bu yerin adı Biləcəridir. Mərkəzi Çağırış məntəqəsi vağzala yaxın olduğundan praporşik Cabbarov bizi cərgəyə düzüb piyada yerişlə ora apardı. Digər rayonlardan gələnlər də bizim kimi, Çağırış məntəsinə piyada gedirdilər. On beş-iyirmi dəqiqədən sonra artıq Çağırış məntəqəsinin həyətində idik. Həyət adamla dolu idi. Praporşik Cabbarov bizi bir küncdə saxlayıb hara isə getdi. “Heç kim yerindən tərpənməsin” qəti tapşırıq verdi. O, bir neçə dəfə gəlib bizə dəysə də dəqiq heç nə demirdi. Hara gedəcəyimiz, nə vaxt gedəcəyimiz bizə gizli olduğu kimi, deyəsən ona da məlum deyildi. Günortaya yaxın əməlli-başlı üzülmüşdük. Bir yandan aclıq, bir yandan da qeyri-müəyyənlik bizi yormuşdu. Hara olur-olsun, təki göndərsinlər, çıxıb gedək.
Bizimlə birgə ayrı-ayrı bölgələrdən gələnlər, elə şəhərin özündən də olan çağrışçılar günortayacan toplantı məntəqəsinə gözləməli oldular.
-Diqqət, diqqət! – Səsgücləndirici ilə səsləndirilən komanda birdən hamımızı xəyaldan ayırdı.
Tribunaya boyu ilə eni bilinməyən, topa bığları ilə diqqət çəkən bir nəfər üzünü bizə tərəf tutub nə isə demək istəyirdi. Çiynindəki ulduzunu görməsək də zabit olduğunu təxmin etmişdik. Qolunda qırmızı qalın lenti də vardı, bu isə onun növbətçi olduğuna işarəydi.
-Məni diqqətlə dinləyin. İndi adını çəkdiyim çağırışçılar gedib yaxınlarıyla görüşsünlər. Sonra meydançanın sağ tərəfində yazılmış “1” rəqəminin yanında üç cərgə olaraq ard-arda düzülsünlər.
Həyəcanlandığımı hiss etdim, daha onun nə dediklərini xatırlamıram. Adımı eşitçək qaçıb dədəmin yanına getmək onunla tələsmədən görüşmək istəyirdim. Yaxınlarımız, yəni bizi yola salmağa gələnlər harda olduğumuzu bildikləri üçün bizdən çox da uzaqda deyildilər. Odur ki, çağırışçı yoldaşlarımı tərk edib dədəmin yanına getdim. Dədəm diqqətlə gözlərimə

baxdı. Nazik, qara şalvarından əvvəlcədən bükdüyü pulu çıxardıb geyindiyim trapes şalvarımın cibinə qoydu.
-Çox olar. Mən bu qədər pulu neyləyəcəm?
-Çox olmaz. Üç yüz manatdır. Hara getdiyiniz bilinmir. Bir də gördün on-on beş gün yol gedəsi oldunuz.
Daha heç nə demədim, razılaşdım.
O vaxtlar trapes şalvarlar, damalı köynəklər modda idi. İndiki kimi fərqli geyimlər dəb deyildi. Qızların geyindiyi donlar da bir-birinə bənzəyirdi. Əksəriyyətinin donu gülü-çiçəyi xatırladırdı. Hiss edirdim, dədəmin dili söz tutmurdu. Nə isə demək istəyirdi, udqunurdu. Əmin oğlu da kövrəlmişdi. Dədəmə tez-tez “Həsən əmi” deməklə elə bil ürək-dirək verirdi. Dədəm iki barmağıyla gözlərini ovuşdurdu, başını aşağı saldı. Mənim də gözlərim dolmuşdu, ilk dəfə dədəmin sərt baxışlarını görmürdüm. Hamı bir yana, dədəmi qoyub getmək istəmirdim. Yayın istisində xoş olmayan hisslər ürəyimdə tufan qoparırdı. Adımı-soyadımı eşidəndə özümü birtəhər ələ aldım:
-Dədə, salamat qalın, getməliyəm. – Güclə bunları deyə bildim, elə bil mən yola salırdım, məni yola salmırdılar.
Dədəmlə bərk qucaqlaşdıq, sonra əmim oğluyla qucaqlaşıb vidalaşanda dədəmin ağlamağının şahidi olduq.
“Kişi ağlayanda ürəyi qadın ürəyinə bənzəyir” həmişə belə deyərdi dədəm. İndi dədəm onun qəhərləndiyinin şahidi olduğumuzu görcək özünü cəmləşdirdi, üzümə iki dəfə yüngül şillə vurdu, cümlələri arasında məsafə qoya-qoya dedi:
-Köpəkoğlu, adam ol. Oralarda başını cəngələ salıb eləmə. Tez-tez məktub yaz. Nənəngili nayran qoyma, ha!…
Dədəm dərindən köks ötürdü, əliylə sinəmdən yüngülcə itələdi:
-Di get! Sənə yaxşı yol
Əmim oğluyla tələsik bir də görüşdüm. Qırmızı ikarusa minmək üçün onlardan uzaqlaşdım. Yenə pəncərə tərəfdə oturdum. İzdihamlar arasından gah görünən, gah da görünməyən dədəmi axtarırdım. Dədəm əlinin dalıyla gözlərinin yaşını silirdi. Məni gördü, gülümsədi. Əlini ürəyinin üstünə qoyub yüngülcə

vurdu. Mən başa düşdüm ki, o, nə demək istəyir. “Atalar oğullarına dayaq olmaq üçün arxa cəbhədə dayanan əsgərlərdir”.
Aeroportdan birinci Moskvaya uçduq. Adını birinci dəfə eşitdiyim Vnukovo aeroportunda on beş respublikadan hərbi xidmətə gələnlər vardı, onların arasında ermənilər də az deyildi. Sovetin vaxtında ermənilərlə düşmənçilikdən söhbət gedə bilməzdi. Erməni milliyyətindən olan qızlarla evlənən azərbaycanlılar da az deyildi. Nadir hallarda bizim qızlardan erməni oğlanla ailə quran olardı. Təzə-təzə böyüklərimiz razı olmazdılar. Elə ermənilərin də ağsaqqalları bu izdivacın əleyhinə idilər. Sevgi isə yeganə hissdir ki, nə millətə baxır, nə də inanca.
Adətlərimiz də bir-birinə oxşayırdı. Dədəm də bir dəfə yanımda demişdi: “O, oğulu silərəm ki, gedib ermənilərdən qız ala”. Mən də, qardaşım da həyat yoldaşlarımızı uşaqlıqdan seçdiyimiz üçün, dədəm də bunu bildiyi üçün, biz tərəfdən arxayınçılıq vardı.
Bir həqiqəti danmaq olmaz. Sevgiyə inandıq, inanmadıq, o hiss nədirsə, qalib gələnə qədər razı olmayanlar birinci öyüd-nəsihət verirlər, xeyri olmayanda sözdə sənə düşmən olurlar. Asırlar, kəsirlər, lazım olanda döyürlər, axırda da şirin çaylarını içirlər. Eşitdiyim Azərbaycan – erməni ailələrin hamısı gec-tez bu mərhələlərdən keçmişdilər.
Hərbi xidmətdə olanacan erməni dostum da olmamışdı. Atamla Qafana gedəndə “salam-sağ ol” üçün erməni tanışlar vardı.
Dədəm dediyi kimi oldu, Moskvadan bizi Uzaq Şərqə, Sakit okean ətrafına, Primorskiy kraya, onların dilində Dalnıy Vostok deyilən bir diyara göndərdilər. Düz on üç gün qatarla yol getdik. Nəhayət, dədəmin verdiyi üç yüz manat pul xərclənib qurtaran günü gəlib bir yerə çatdıq. Bizi hərbi hissəyə gətirib kazarmalarda yerləşdirdilər. Başımızı keçəl qırxdırıb çimizdirəndən sonra əynimizə əsgər paltarı geyindirdilər.

Əsgər olub cərgəyə düzüldüyümüz gün, həyatımda, bəlkə də ən çox sevindiyim günlərdən biriydi. Həm, necə deyərlər, “kişilik məktəbində” xidmətə başlayırdım, həm də evdən çıxıb üzücü yol yorğunluğundan, narahatçılıqdan sonra sanki, bir rahatçılıq tapmışdım. Lap dünyanın o başında olsaydım da bilirdim ki, burada hərbi xidmət keçəcəyəm.
Andiçmə mərasimindən sonra bizi rotalara böldülər. Mən birinci rotaya düşmüşdüm. Bizi beton zavoduna işləməyə göndərirdilər. Üç ay beton zavodunda işləyəndən sonra altı aylıq Ussuri körfəzinin qarşısında yerləşən Bolşoy kamen (Böyük daş) şəhərinə ezamiyyətə getdik. Bizdə tikinti hissəsi (stroitelnıy çast) idi. Hərbi hissəmizin nömrəsi indiyəcən yadımda qalıb. Voenniy çast (hərbi hissə) – 63306-da xidmət etmişdim. Hərbi hissədə qaralar çoxuydu, amma iki müsəlman vardı; mən və özbəkistandan gələn bir oğlan. Qalanları Ermənistanın müxtəlif bölgələrindən gələn ermənilər idi. Babkenlə tanışlığımız ordan başlamışdı. Babken Akopyan Qafandan idi. Özü də azərbaycanlıları çox sevirdi. Mənimlə digər ermənilər rus dilində danışanda Babken təklikdə azəricə danışardı. Diksiyasından yenə də erməni olduğu hiss olunurdu. Onu da yazım ki, ermənilərin çoxu bizim dili yaxşı bilirdilər.İndi də bilirlər. Məsələn, bakıda yaşayan ermənilərin diksiyasından erməni olduğunu hiss eləmək olmurdu. Digər erməni uşaqları məni ya zarafata, ya da acığa “ara tork” çağıranda, Babken soyadımı qısaldıb “Mirzə” çağırardı. Maşın sürməyi bacardığım üçün sürücü işləyirdim. Bizim vaxtımızda əsgərlərə işlədiyi üçün ayda üç manat maaş verilirdi.
Millətlərarası düşmənçiliyin olmadığını bilirdik, lakin aramızda bizə nifrət edən ermənilər az deyildi. Qarik Ağayan adlı əsgər yoldaşımızın ilk gündən mənimlə ulduzu barışmamışdı. Onun mənimlə rəftarının yaxşı olub-olmaması vecimə də deyildi. Davamız da düşməzdi.Babken hər ehtimala qarşı bir-neçə dəfə Qarikə görə xəbərdarlıq etmişdi. Mən isə onun hər dəfəsində Babkenin dediklərini qəribçiliyə salırdım:

-Babken, o, mənə nə edə bilər? Belə də ki, nə etsə, ikiqat da cavabını alacaq.
Hər dəfəsində də başını yüngülcə yelləyər, erməniləri yaxşı tanımadığımı tez-tez deyərdi. Bəzən elə bilirdim Babkenin bizimlə qarışığı var. Əslində, fərqli millətdən olmağımızın ikimiz üçün də heç bir əhəmiyyəti yox idi. Birlikdə çörək kəsmişdik, bir-birimizə qardaş, sirdaş olmuşduq. Arada zarafatıma salırdım; “ Babken, bir gün düşmən olsaq, məni öldürüb eləmərsən ki? ”
– Səyləmə ə, Mirzə – əsəbi cavabımı verərdi. Babken tez özündən çıxan adam olduğu üçün onu cırnatmaq xoşuma gəlirdi. Üzüdönük olmadığını yoxsa mən də bilirdim.
Lakin ermənilərin fürsət düşəndə üzlərinin necə döndüyünü növbəti il aprelin 23-də gördüm. Bizə beton zavodun yaxınlığında köhnə bağçada yer vermişdilər. Kazarma əvəzi istifadə edirdik.
Həmin gün səhər-səhər işə gedirdim. Təxminən 30-40 erməni yoldaşımızın kazarmada qalıb nə isə hazırlıq gördüklərinin şahidi oldum. Kimisi ət doğrayırdı, kimisi samovarda çay dəmləyirdi, kimisi yandırmaq üçün odunları bir kənara yığırdı. Ayda bir dəfə hər birimizin evindən bizə pay-pürüş, pul göndərilirdi. Həftədə bir dəfə məktub yazıb göndərmək adətimiz olmuşdu. Evdən gələn pullarla ən çox bir-birimizin ad gününə hədiyyə alar, kef məclisi qurardıq. O gün də elə bildim kiminsə ad günüdür. Həmin günəcən elə bilirdim, aramızda millət söhbəti yoxdur. Qarik də kazarmada qalmışdı. Babken hazırlıq görən ermənilərə gözlərini qıyaraq şübhəylə baxması da məni şübhəyə salmamışdı.Babkendən soruşdum:
-Bu gün kimin ad günüdür?
Babken məndən bir az qabağa düşdü.
-Heç kimin!
-Onda niyə toplaşıblar? Nəyə hazırlaşırlar?
Babken sualıma cavab vermədi. Axşam da məndən əvvəl işdən çıxıb kazarmaya gəlmişdi. Qanı qaralmışdı, ara

vermədən bir-birinin ardınca siqaret çəkməyindən bilirdim. Bir siqaret də mən yandırdım, səhər verdiyim sualı təkrarladım.
-Nə məsələdir, Babken? Səhər sualıma niyə cavab vermədin?
Babken üzümə də baxmadı.
-Yağış yağacaq, Mirzə.
Mən də pəncərədən çölə baxdım.
-Bilirəm. Aprel ayıdır də, yağmalıdır. Bir də mən gələndə damcılayırdı.
Bu dəfə Babken gözlərimə baxdı, elə bildi ki, mən nə isə bilirəm.
-Sabah Andranikin günüdür.
Hər şey mənə aydın oldu.
-Sizin məşhur Andraniki deyirsən? Hə də, siz axı hər il yeyib-içməklə onun matəmini saxlayırsız.
Babken başını yelləyib pəncərənin yanından uzaqlaşdı, çarpayısında oturdu.
-Sən necə də sadəlövhsən. Hələ də heç nə bilmirsən, tork.
Təəccüblənmişdim, o, ilk dəfəydi ki, mənə "tork" deyə müraciət edirdi.
-Onlar səni öldürmək istəyirlər. Andranikin qulağını bilirsən də kim kəsib?
Babkenin sualına cavab vermirdim. Əsgər yoldaşlarımın məni öldürmək planı qanımı dondurmuşdu. Babken danışmağa davam edirdi:
– Görürsən? Heç nə bilmirsən, Mirzə.Amma biz sizin tarixinizi yeri gələndə sizdən yaxşı bilirik. Andranik erməni, bolqar xalqı üçün qəhrəmandır.
– Azərbaycan, türk xalqı üçün də satqındır. Uşaq, qoca, qadın qatilidir. Erməni general dostu olmasaydı, bolqarlar onu qəhrəman görməzdilər.Narahat olma, biz də sizin tarixi pis bilmirik. Hardadı o əclaf? Görüm hansı köpəkoğlu məni öldürəcək?
İxtiyarsız səsimi yüksəltmişdim, qan başıma vurmuşdu. Qariki yumruqlarımın altında əzişdirmək istəyirdim. Babken qarşımda

dayanıb, məni sakitləşdirməyə çalışırdı:
– Mirzə, xahiş edirəm, məni deməyimə peşman eləmə. Onlar çoxdur, sən təksən. Lap mən də sənin yanında olacam. Sonra? Ağılla hərəkət eləmək lazımdır. Bu məsələni sakit həll etməliyik.
Babken haqlı idi. Coşmaqla məsələni həll eləmək olmazdı.
Babken guya məni sakitləşdirmək üçün zarafat elədi.
– Sizinkilər sənə qoymağa ad tapmadı, Mirzə?
Özümü birtəhər ələ aldım, yenə də hirsli idim.
– Dədəm elə adımı Soltan bəyin şərəfinə qoyub, Babken. Onların planı nədir?
– Səni birinci yeyib-içməyə çağıracaqlar, sonra da öldürəcəklər.
Hirsimdən güldüm.
-Nə danışırsan? Üstündən gör neçə il keçib,bir-birimizə qız alıb verən millətik, bunların planına bax! Bunu eləməyə dal lazımdı e!… Tutaq ki, məni öldürdülər. Sonra nə cavab verəcəklər?
Babken oturdu,iki barmağı arasında külə dönmüş siqaretini batinkasının altında söndürdü, bu dəfə rus dilində dedi:
– Nə olsun mehriban yaşayırıq.Hər il Andranikin şərəfinə mütləq bir tork öldürülür. Ya toka verərlər, ya zəhərləyərlər, ya da maşın qəzasına salarlar.
Babken ayağa qalxdı, mənə yaxınlaşıb qolumdan tutdu. Səsi titrəyirdi.
-Mirzə, səni çox istəyirəm. Mənə sirdaş, qardaş olmuşuq.Yalvarıram, tərslik eləmə. Qaç çasta, iki-üç günə qayıdarsan.
-Bəs, məni axtarmayacaqlar?
-Nə axtarmaq? Mirzə, başa düşmürsən ki, səni öldürəcəklər? Onlar danışanda eşitmişəm.
-Bəs sən?
Babken bu dəfə bizim dilimizdə danışdı.
-Narahat olma, erməni erməniyə heç nə etməz.
Bizim altı rotamuz vardı. Beşi qalmışdı Novanejin şəhərində. Qarikgilin başı qarışanda Babken qaçmağıma kömək etdi. Sərnişin qatarına minənəcən məni gözlədi, sonra qayıtdı

kazarmaya.
İki saatdan sonra, axşam saat səkkizdə qatardan Novanejində düşdüm. Yaxın olduğu üçün çasta piyada gəldim. Ordakı Azərbaycan uşaqları gəlişimə təəccüblənmişdilər. Niyə gəldiyimi soruşanda erməni əsgər yoldaşlarımın planlarından danışdım. Çastda erməni uşaqları da dediklərimi təsdiqlədilər, Andranikin şərəfinə mütləq bir türk qurban seçildiyini, qaçmaqla düz hərəkət etdiyimi dedilər.
Babkenin təhlükəsizliyi üçün haqqında bir kəlmə də olsun danışmadım. Üç gündən sonra öz çastımıza qayıtdım. Qapı ağzında Qariklə bir neçə erməni yoldaşları söhbət edirdilər. Qarik məni görən kimi gülümsədi. Gülümsəyəndə üzündə qəribə mimikalar yaranırdı. Rus dilində dedi:
-Neçə gündür görünmürsən, Soltan bəy.
Xəyalımda əclafa yaxınlaşıb çənəsinin altından bir yumruq vurdum. Yaxınlaşdım, heç nə olmayıbmış kimi Qarik mənə əl uzatdı. Mən də öz növbəmdə əl uzatdım Qarikə də, o biri ermənilərə də. Rus dilində salamlaşdım:
-Yerlilərim gəlmişdi, onlara baş çəkməyə getmişdim.
Qarik qələbə qazanmış adam kimi güldü.
-Sən çoxbilmiş adamsan, Mirzəyev. Burda qalsaydın, səhərəcən yeyib içərdik.
Gülümsədim, onun çiyninə iki dəfə yüngülcə vurdum.
-Elə bil ki, yeyib içmişəm, Ağayan. Sağ olun. – Sakitcə onlardan uzaqlaşmışdım ki, Qarikin axırıncı sözləri ayaqlarımı yerdən kəsdi.
-Babkeni axtarma. Pilləkanlardan yıxılıb, yaxınlıqdakı xəstəxanadadır.
Qarikə yaxınlaşdım, hirsimi cilovlaya bilmədim, yaxasından yapışdım. Yanımdakı ermənilər bizi ayırmaq üçün aramıza girdilər. Qolumdan tutan erməni:
-Mirzəyev, sakitləş. – dedi.
O biri ermənin erməni dilində Qarikə dediyi sözlərini eşitdim:
– İsk hangarts mer handep bogoki!

Qarik astadan cavab verdi:
-Mi vaxestir yerkusnel cen karoq apatsutsel.
Günorta Babkeni görməyə getdim, eşitdiklərimi ona təkrarlayanda bildim ki, onlar şikayət edib-etməyəcəyimiz barədə narahatdılar. Əclaflar Babkenin bədənində demək olar, barmaq qoymağa ağ yer qoymamışdılar. Axşam məni "yeyib-içməyə" çağıranda tapa bilməyiblər, Babkendən şübhələniblər. Sonra da onu o ki var döyüb, pilləkanlardan itələyiblər. Babken mənimlə danışanda əvvəlcə özünü güclə toplayırdı:
-Mirzə, mən axmaqlıq elədim. Gərək səninlə gedəydim.
Babkenin şikayət etməməsi məni ikiqat əsəbləşdirirdi:
-Babken, niyə şikayət eləmirsən?
Babken gülümsədi:
-Alınmaz, qardaşım. Deyəcəklər, erməni erməniylə yola getmir.
-İncimə, Babken, millətinin murdar nümayəndələri çoxdur.
Babken gülməyə çalışır, nəfəsi daralırdı, ancaq yenə də ermənilərin tərəfini saxlamaqdan qalmırdı.
-Dediyin murdarlardan hər yerdə var.
Yenə də bu hadisəylə Babken kimi barışa bilmirdim. Qariki görməyə gözüm yox idi. Məni görəndə bir-neçə dəfə salam verdi, cavab da vermədim. Ona da, onunla əlbir olan ermənilərə də!…
Babken xəstəxanadan çıxdı. Məsləhətləşdik, məzuniyyətimin bitməyini gözləmədim. Ərizə yazdım, Novanejna şəhərinə – çasta gəldim. Komandirimiz asetin millətindən idi. Məni kərpic zavodda işləməyə göndərdi. Orda yaşca məndən böyük olan Natalya adlı bir qızla tanış oldum. Gözəlliyi bir tərəfə, mülayim xasiyyəti də məni özünə bağlamışdı. Niyə yalan deyim, çox istərdim, ona qarşı olan hisslərim İlknura qarşı olan sevgimi üstələsin, alınmadı. Hərbi xidmətimizi başa vuranacan münasibətimiz davam etdi.
Akarada düşəndə məni Bakıdan yola salan əmim oğluyla qardaşım qarşıladılar. Gözüm isə, dədəmi axtarırdı:
-Dədəm niyə gəlmədi?

Əmim oğlu cavab verdi:
-Evdə səni gözləyir.
Əslində, dədəmlə bağlı xatirələrimi yazmaq mənim üçün çox ağırdır. Həyətə girəndə nənəm, bacılarım məni gözlərinin yaşını tökə-tökə qarşıladılar. Dədəmi yenə görmədim.
-Dədəm hanı?
Qardaşımın gözləri dolmuşdu, nənəm hönkürtü ilə ağladı. Əmim oğlu həqiqəti udquna-udquna deyənəcən artıq hər şeyi başa düşmüşdüm.
-Həyatdı, əmi oğlu.
Dizlərimi nə vaxt yerə qoyduğumu xatırlamıram. Üzümü ovuclarımda gizlətdim, ürəyim yerindən çıxanacan hönkürtüylə ağladım. Dədəm məni yola salanacan keçirdiyim xoşagəlməz hisslərin nə olduğunu o gün dərk elədim. Son bir ildə niyə mənə gec-gec məktub gəldiyini də!…
Dədəmin boynunu qucaqlamaq yox, iyulda rəhmətə getdiyi üçün ilini vermək qismət oldu.
Dədəm bir gecə yatmış, bir səhər isə ayılmamışdı.
Daha bir il keçdi. Bu bir ildə həyatımda çox şeylər dəyişdi. İlknur sevgimə müsbət cavab vermişdi. Xoş anlar yaşatmaqla yaddaşımda qalan Natalya ilə arada məktublaşırdıq.
Bir gün isə sırf təsadüfdən Qafanda Babken ilə qarşılaşdıq. Saakyan küçəsiylə gedəndə bir nəfər arxadan gözlərimi yumdu. Günəşin şüalarını barmaqlarının arasından fərq elədim. Səsindən Babken olduğunu bildim. Görüşdük, qucaqlaşdıq, birlikdə "Zəngəzur" restoranına getdik. Əsgərlik xatirələrindən danışdıqca yüz-yüz vururduq. Babken mənimlə yenə də mənim dilimdə danışırdı.
-Babken, sənin vallah, bizimkilərlə qarışığın var! – deyib rumkamı rumkasına yüngülcə vurdum.
-Yox Mirzə, təmiz erməniyəm. Saf millətsiz deyə, sizləri çox istəyirəm. Gələn ay Rusetə köçürəm. Yerimi rahatlayım, sənə məktub yazacam.
Babken dediyi kimi də elədi. Rusiyaya köçdü, ancaq ondan

məktub gəlmədi. Qafanda onu tanıyan erməni tanışım da yox idi ki, haqqında nə isə öyrənə bilim.
Babken bir həqiqəti düz deyirdi. Ermənilər çox fürsətçil millətdir. Sovet hököməti dağılandan sonra onların üzünü Azərbaycan gördü. Bugün onlar Qarabağı işğal ediblər. Əslində, Qarabağın hansı ölkəyə məxsus olduğu dünya ictimaiyyətinə yaxşı məlumdur. Ermənilər məskunlaşdığı üçün onların adı çəkilir.Tərslikdən nağıllarda oxuduğumuz cinin canı şüşədə olan kimi,bizim də uğurumuz-uğursuzluğumuz ermənilərə himayə edən ölkədən asılıdır.
Qızım kimi internetdən nə anlayışım, nə də marağım yoxdur. Arada you tube girib ya saz çalan aşıqları dinləyərəm, ya da gedə bilmədiyim rayonlarımıza baxaram. Qubadlıya aid videolara baxanda dədəmin qəbri yadıma düşür, uşaq kimi ağlayıram. Bircə təsəllim odur ki, erməni Babken bu gün öz millətinə məndən iki dəfə artıq nifrət edir.
12.03.2017

***Son***



*Murad MƏMMƏDOV*

**TÜRKÜN QILINCI**
Türkün qılıncıyla yoğrulan torpaq,
Onun namusudur əl vurmaq olmaz!
Türkün nəfəsindən titrəşər yarpaq,
Onun qabağında sədd qurmaq olmaz!
* * *
Kimsənin malında gözü yox onun,
Malına toxunsan peşiman edər.
Nəfsinə hakimdir gözü tox onun,
Süfrəsi açıqdır ürəyi qədər.
* * *
Türkün nifrəti də sevgisi qədər,
Düşmənə zalımdır, dosta mehriban.
Onu əyə bilməz qüssə qəm kədər,
İnamı sarsılmaz sınmaz heç zaman.
* * *
Tanrıdan güc alar çətin anında,
Nə dala çəkilər, nə qorxu bilər.
İlahi yanğı var onun qanında,
Qanı qaynadısa özünə gələr.
* * *

Torpağı uğrunda canından keçər,
Namusu qeyrəti hamıya bəlli.
Nə yurdu dəyişər nə yurddan köçər,
Nəyə sahibdisə tutar beşəlli.
* * *
Türkün canındadır əzəmət vüqar,
Heç kəsə baş əyməz bu minnət deyil.
Onun qanındadır sədaqət ilqar,
Dostuna sadiqdir müxənnət deyil.

**OLUR**
Sular tərsə axarmı heç?!
Ömür sözə baxarmı heç?!
Tək əldən səs çıxarmı heç?!
Təlatümlər çoxdan olur.
* * *
Yatan bəxti açan olmur,
Heç qədərdən qaçan olmur,
Öz xoşuyla köçən olmur,
İnsanlar var-yoxdan olur.
* * *
Nə səhv elə, nə də ki çaş,
Can ağrıdar gözdəki yaş,
Ağılsıza gülmə, qardaş,
Bu, qismətdən, baxtdan olur.
* * *
Yaşamaqdan yorulanda,
Candan bezib, xar olanda,
Haqq divanı qurulanda,
Demə ki, nahaqdan olur.
* * *
Yaxşı övlad baş ucaldar,
El içində eyləməz xar,
Ac yazığın imkanı var?!

Hər fırıldaq toxdan olur.
* * *
Gəl ağlama, yana- yana,
Dostum, girmə min bir dona,
Asi olma, Yaradana,
Nə olursa, haqdan olur.

**VƏTƏN**
Bu torpaq hamıya Vətəndi, qardaş,
Hamı bu torpaqdan qüvvət, güc alır.
Bu ömür nə vaxtsa bitəndi, qardaş,
Bəs niyə kasıblar vaxtsız qocalır?!
* * *
Dünyanın dərd-səri bunamı qalıb?!
İlahi, kasıbın Allahı yoxmu?!
Dərd elə boğub ki gözləri dolub,
Göz yaşı quruyub, damcı yaş axmır.
* * *
Ruzini harına, çörəyi toxa,
Dərdi toxum bilib əkənə verdin.
Nə əkir cücərmir, çıxardır yoxa,
Əzabı göz yaşı tökənə verdin.
* * *
Vətən dara düşür, dərdini çəkir,
Özünə qəsd edir, canına qıyır.
Özüylə bərabər dördünü çəkir,
Nə işdən soyuyur, nə qorxu duyur.
* * *
Bir oğul böyütdü min bir əzabla,
Düşündü nə vaxtsa nəvə görəcək.
Bir oğlu varıydı, oğulsan tabla,
Onu da Vətənə qurban verəcək.
* * *

Ay Allah kasıba az zülüm eylə,
Vətənin dərdini alır kasıblar.
İlahi, bəndənə düzünü söylə,
Nədən üzüyola olur kasıblar?!

**YADDAŞA ƏLAVƏ**
Yaxşılığı duymaq, görmək,
Borcumuzdur, ad, san deyil.
Günahsıza torba hörmək
Hörən kimsə, insan deyil!
* * *
Əziz olmaz kimsə sənə,
Qanı qanından olmasa.
Canı yanmaz bir dərdinə,
Canı canından olmasa.
* * *
Dəyər vermə hər yetənə,
Nə soyuq ol, nə yandırma.
Kimsə dəyər versə sənə,
Yüz ölç bir biç, utandırma.
* * *
Yoxlamamış tez güvənmə,
Çiy süd əmib insan oğlu.
Səviyyəndən qəti enmə,
Yaxın qoyma dayaz ağlı.
* * *
Dərd eləmə gələn dərdi,
Öz vaxtı var, keçib gedər.
Tanrı bizə ömür verdi,
Çalış qoyma getsin hədər.
* * *
Doğru sözün yükü ağır,
Baş ağrısı, eh, çox olar.

Doğru danış olma fağır,
Qorxun, hürkün tam yox olar.
* * *
Kobud olma, mərd ol işdə,
İnsanlığı düşün hər an.
Kimisə də ilk görüşdə
Cahil bilmə, ağıllı san.
* * *
Həya umma həyasızdan,
Abır, ismət, arın gedər.
Uzaq dolan ağılsızdan,
Malın, mülkün, varın gedər.

**YOXSA**

Dünya, mənlə nə işin var?!
Mənə çatan varın yoxsa!
Dərələrdə bulaqların,
Dağ başında qarın yoxsa.
* * *
Qan ağlayır yaylaqların,
Yiyəsizdi oylaqların,
Geri dönməz qonaqların,
Təmiz, düz ilqarın yoxsa.
* * *
Nə sirdi ki, biləmmərik?!
Biz nəşənə bələnmərik,
Hüzuruna gələmmərik,
Bizlə bir simsarın yoxsa.
* * *
Çarəsi yox deyinməyin,
Ora-bura tüyünməyin,
Yeri varmı öyünməyin?
Bir namusun, arın yoxsa.
* * *

Murad, illər yol salacaq,
Sinən üstən ,iz qalacaq,
Əziyyətin puç olacaq,
Bir dil bilən yarın yoxsa.

**NƏ XOŞ…**
Ömür nə tez keçir fəsillər kimi,
Gah isti, dözülməz bir yaya bənzər.
Bəzən səmt dəyişən sərt yellər kimi,
Bəzən də lal axan bir çaya bənzər.
* * *
Mənasız günləri ömürdən silsək,
Bu ömrün mənası heç nəyə dəyər.
Mənalı, mənasız günlərə bölsək,
Həm ömür inciyər, həm gün inciyər.
* * *
Yaxşısı yaxşısa, pisi də pisdir,
Hamısı keçilmiş bir yolun sonu.
Hər bir yaşanan gün ötəri hisdir,
Sonradan anlayıb duyarsan bunu.
* * *
Ömür yollarında şütüyən mənəm,
Amma hər əzaba dözən ürək var.
İstədim həmişə nəfsimi yenəm,
Göz açdım qarşımda yenə çörək var.
* * *
Ömür İlahidən paydı bizlərə,
Bu ömrün cəfası da, səfası da xoş.
Tanrı elə cığır qoydu bizlərə,
O yolun sonunda qaldıq əli boş.
**KEÇİR**
Niyyətin pak olsa, qəlbin ağrımaz,
Çəkdiyin dərd-azar ürəkdən keçir.
İnsanın qaməti niyə əyilsin?

Çünki əzabların kürəkdən keçir.
* * *
Dolğunluq dövründən öncə dərilən,
Əksər günahları Tanrıdır silən.
Qiyamət günündə sənə verilən,
Nə qədər sual var gərəkdən keçir.
* * *
Murad dinməsə də hər şeyi görür,
Gündəlik özünə hesabat verir.
İnsanlar əyilir min dona girir,
Ən ağır imtahan çörəkdən keçir.



Şəlalə ADİLQIZI

**QARABAĞI AZAD EDƏN QƏHRƏMAN!**

Narıncı donlu günəş
Dənizlə sevişəndə gəl…
Küləklər ehtirasını
Yağışla söndürəndə gəl…
Dünyanın elə vaxtı,
Elə günündə gəl ki,
Kəpənəklər rəqs eləsin
Nəğməsiylə sevdanın…
…Elə gəl ki,
ortaq olsun inancımız:
mavi rəngli məhəbbətin
qucağında uyuyarkən
Ay olacaq balıncımız…

***

Oxuduğum bir kitabdaydı,
ya da baxdığım bir filmdə;
sənə baxmaq ibadət imiş eşqə…
…Çiyninə baş söykəmək dua,
Dərdindən gülməmək oruc tutmaqmış…
Bunları  öyrəndim…
Ağlımın yetmədiyi,
əlimin çatmadığı bircə sirr var:
bu qədər mavi,
bu qədər azad,
bu qədər əngin olmağı
necə bacardın axı?
Bir də…
Niyə filmlər və kitablar
Sənə məndən danışmır?
Demirlər: bir dəli sənsiz darıxır?!

***

Təbiətin qırx qapısı açıldı,
Su başında əjdahalar gülüşdü…
Ay Günəşin vüsalına yetişdi,
Qaf dağına işıq düşdü…
Dünyanın ən gözəl çiçəyi
Kaktusun qoynunda açdı…
…Kimsə görmədi bunu,
Hamı həqiqətdən qaçdı…

***

Ayrıldıq…
Dərd tapıldı

Canımda sən adında…
Bax, sənsiz “bəxtiyar” oldum;
Dərmanlara “yar” oldum…
…”Xərçənglər gözəl sevir” –
çıxdı bu gün bürc falım…
Mən səni çox sevdim,
Xərçəng həzin halımı…
…Ovuc-ovuc içdiyim
Dərmanlar da utancaq
Ağrımı kəsmir deyə…
Ayrıldıq…
Adın yazılı qaldı
Cibimdəki “kimliyə”…

***

Gəl, otur yanıma,
Cənab yeməkpaylayan…
Gəl, ikimiz bir yerdə
Xatirəni haylayaq…
Danış müharibədən…
Yollarına gül deyil,
Güllə səpən taledən…
Söylə, ən yaxın dostun
Qayıtdımı evinə?
Sağ-salamatmı döndü?
Yoxsa sənin çiynində?
…Cənab yeməkpaylayan,
Torpaqdan pay vermədin!
İndi gəlib
Döyüş vaxtı gizlənən,
Savaş nədi bilməyən
Həmyaşıdın üçün sini daşıyırsan…

O, gülür, əmr verir…
Qaşların düyünlənir…
Bilirəm, bu düyündə min kədər yaşayırsan…
Yarı toz, yarı qan əsgər paltarı
Olub xatirəsi ağ köynəyinin…
Küçədə bağrına basan insanlar
İçəridə adıdır dağ göynəyinin…
Şəhidlik asandır, yoxsa şahidlik
Savaşın ən qatı, ən tünd halına?
Söylə, qardaş…
Çəkinmə, dərd bilir səni yaradan!
Adın medallardan daha ucada:
QARABAĞI AZAD EDƏN QƏHRƏMAN!

**BİR PAYIZ GÜNÜ…**
Qonşuya duz dalınca,
Yoxsa quzu qaytarmağa
göndərmisən uşaqları, İlahi?
Uzatdığı saqqız qədər tanıyırdı uzağı,
Qolundakı diş yeriylə ölçürdü vaxtı…
Çərpələngə ad qoyurdu: “Qaranquş”…
Parabüzən axtarırdı göndərə pay dalınca:
“Uç-uç baba, get gətir payımı… Uç!”
Dağ çayında yuyurdu ayaqlarını,
Moruq ləkəsinə qatırdı
Cızılan barmağının qanını…
Hər şeyi səndən istəyən,
Küsməyi-barışmağı bir oyunluq çəkən
Uşaqları hara göndərdin, İlahi?
Göstər getdikləri yeri…
Bu ömrü yanlış gəldik,
Qayıdaq geri…

***

Zirvələrə qar tez düşər,
Zirvələrdən qar gec düşər…
…Dərddi zirvə,
Dərddi qar bəzən…
Çəkir dağın sinəsinə cığır-cığır naxışlar…
…Çəkilir dərdlər,
Ağarır saçlar,
Bir-birinin başına sığal çəkmək üçün
Üst-üstə qalaqlanır yaşlar;
İnsan qocalır…
Ot basan cığırlar insan ömrünə dolandıqca
Dərd də candan bac alır;
Və bir gün, sadəcə,
Xatirəyə dönür insan…
Bir gün də onu xatırlayanların
Yaddaşında itir insan…

***

Oxuduğum bir kitabdaydı,
ya da baxdığım bir filmdə;
sənə baxmaq ibadət imiş eşqə…
…Çiyninə baş söykəmək dua,
Dərdindən gülməmək oruc tutmaqmış…
Bunları öyrəndim…
Ağlımın yetmədiyi,
əlimin çatmadığı bircə sirr var:
bu qədər mavi,
bu qədər azad,
bu qədər əngin olmağı
necə bacardın axı?
Bir də…
Niyə filmlər və kitablar
Sənə məndən danışmır?
Demirlər: bir dəli sənsiz darıxır?!

***

Böyüyürdüm…
Dinləyirdim
Həyatdan bəhs edən nağılları…
Düşürdü deyirdilər “üç almalar”;
Doyurmurdu həyata dair xəyalları…
Sonra öyrənməyə başladım
Sevməyi, sevinməyi,
Gülümsəməyi, qəmlənməyi,
Və yağışda rəqs etməyi,
Və ovcumdakı damlaya bir dua pıçıldayıb
Gül kökünə göndərməyi…
Bir səhər günəşdən öncə oyandım,
Ovcuma göndərdi saçaqlarını…
Yapışdım saçağından günəşin
Qaçdım yaşıllığın ətrinə sarı…
Bir simitlə mən də doydum, göyərçinlər də…
Bir udumluq sevinc oldu pambıq şəkəri…
Öyrəndim həyata dair hər şeyi;
Kiçik, saysız xoşbəxtlikləri…

***

Gözünün yaşı söndürər
Yaşam eşqini; ağlama!
Gülüşün gülə döndərər
Ovcundakı dərdini: ağlama!
Bil ki,
Ömrə gələn gedəsidir; gülümsə…
Sev ki,
Sevgi dünyalararası
Savaşın atəşkəsidir; gülümsə…

***

Ana
Anı yaşamağa qoymayanda
Uşaqlığı itiririk…
Bircə anda böyüyürük…
Ata
Ömrü çərçivəyə salanda
Özümüz qırırıq qanadımızı…
Arzularımızın önünə
“qırmızı xətt” çəkirik…
Qardaş
Önümüzdə “qara daş”dısa,
“Zəncirlənmiş Prometey”
xəyali dostumuz olur…
Bacı
Olmayanda “səbir daşı”mız,
Həmdərdimiz “Kerri bacı”,
Dərdimiz qorxusuz olur…



**Şəlalə CAMAL**

**AYRILIQ…**

*(Cabir Novruz "Üzü dönsün ayrılığın" şeirindən ilhamlanaraq)*

Yavaş- yavaş gecə keçmir,
Keçsə belə gün bitməzdi…
Ay dolanıb il çatmazdı,
Ahım Allaha yetməzdi…
* * *
Şirin günlər, şirin aylar,
Göz qırpımında olmazdı…
Bu eşq ilə nəfəs alıb,
Həsrətindən qocalmazdım…
* * *
Ay çəkilər, günəş gələr,
Başımıza min iş gələr…
Qızıl gedər, gümüş gələr,
Mən gəlmərəm gümüş kimi….
* * *
Şirin günlər, şirin aylar,
Göz qırpımında olmazdı.
Bu eşq ilə nəfəs alıb,

Həsrətindən qocalmazdım.
* * *
Çöldə ildırımlar çaxar,
Donan çaylar, sular axar,
Həsrət ilə mən baxaram,
Ürəyin yanıb yaxılar.
* * *
Şirin günlər, şirin aylar,
Göz qırpımında olmazdı.
Bu eşq ilə nəfəs alıb,
Həsrətindən qocalmazdım.

**SEVGİ**
Mən sevginin özüyəm.
Sən sevməyi bilməmisən…
Bircə dəfə yanağımdan ürəyimə süzüb gələn göz yaşımı silməmisən…
Sevgi mənəm…
Cırmaq – cırmaq,
Addım – addım,
Aşa – aşa,
Çaşa – çaşa
məhəbbətdən dönməmişəm…
Sevgi mənəm,
Sən ölsən də…
Yaşayacam kainatda, bil ki, hələ ölməmişəm.

**GETMƏ**
Gücüm çatmır ayrılmağa,
Gəl yaramı özün bağla…
Bəlkə fürsət yaranardı, sonuncu kəz danışmağa…
Bu son vida…
Əmin ol ki, sovurulacaq bundan belə, gəlib – gedən bəla – qada…

Nəfəsimdə iniltini,
içimdəki qımıltını,
evimdəki hənirtini
yox edəcəm…
Darıxma, tez gedəcəm…
Qalmayacam….
Bu ölkədə, bu həyatda, kainatda olmayacam…
Sağlığında qiymət verin insanlara demişdilər…
Nə olsun ki?
Demişdilər…
Mən sağ ikən görməmişdim o qiyməti, o dəyəri….
İçim nisgil, çölüm nisgil…
Dərd içində qıvrılıram…
Yanıb göyə sovruluram…
Gəl yaramı bağlamağa….
Tut əlimdən danış görüm.
Mən beləyəm. Sən necəsən?

**YADIQ**

Ruhunla tanış deyiləm…
Daha danışan deyiləm…
İçimdəki o qığılcım sönüb artıq…
Sənə qarşı ruhumdakı o şəfqət də dönüb artıq…
Üzü dönsün ayrılığın deyirdilər…
Dönməz olsun.
Ayrılıqdan betəri var…
Dözə – dözə inləyərsən…
Sakitliyin içində sən göz yaşını dinləyərsən…
Ruhuma bələd bir qadın,
Yadımdan da çıxıb adın.
Allaha yetir fəryadım,
Daha danışan deyiləm.

**SEVGİ GƏTİRDİM…**

Sənə bir çamadan sevgi gətirdim
Qarışıb içində köhnə – külüşə
Sən Allah bağışla, özüm qalmadım
Qalsaydım, çatmazdım indi görüşə.
* * *
Üzünə baxmağa gücüm çatmadı,
Məni dar ayaqda gözləyənim var.
Qapının ağzına qoyub çıxmışam,
Qorxuram, kölgətək izləyənim var…
* * *
Sənə bir çamadan sevgi gətirdim,
Mən özüm olmaram, qoy sevgim olsun
Sənə bir çamadan sevgi gətirdim.
Eşələ o sevgi qoy təmiz qalsın.
* * *
Köhnələr içində itib – batmasın,
Heyifdi, sevgimiz viran qalmasın
Sənə bir çamadan sevgi gətirdim…
Sevgisiz həyatın bir an olmasın…

**YOX**

De hansı dövrdür indi?
Ala qarğada bala yox…
De hava niyə sərindi?
Mıxa vurur, nala yox…
* * *
Əcayib zamana düşdük,
İllər keçdi, gün ötüşdü…
Daşı daş üstə gətirdim,
Fiqur oldu, qala yox….

**EŞİTDİM…**

Eşitdim ki, darıxmısan,

Haqqımda danışırsan…
Mən bilirəm, hiss edirəm…
Qulaqlarım cingildəyir…
Orda – burda danışınca
Zəng etsəydin…
Ondan – bundan soruşunca
Kaş gəlsəydin…
Söz göndərən yaşını da keçmisən….
Sən ki, uşaq deyilsən.
Mən ki, oyuncaq oynayan yaşda belə deyiləm.
Amma dayan,
Yoxdu indi saçlarıma sığal çəkib oxşayan…
Ağlamıram, tozmu qaçdı gözlərimə bilmirəm….
Narahat olma, yaxşıyam.
Gözlərimdə kədər deyil,
Bu ki tale, qədər deyil.
Özün seçdin ayrılmağı….
Məndən ayrılmaq olardı?
Mən ki, sənə can deyirdim…
Canına qurban deyirdim…
Qollarımın arasında itib batdın….
Dişlərimin arasında dodağımı sıxa – sıxa ağlayırdım…
Hə, yoluna gözlərimi dikib baxdım….
Bəlkə gələrsən deyə
Qapını açıq buraxdım.
Toz – tozanaq oldu evim,
Daxmalığa döndü yuvam.
Sənin mənimlədir bilirəm,
Mənim özümlədi davam.
O möhtəşəm gedişinə
Səbəb məndim…
İndi dinlə,
Mən xoşbəxt idim səninlə
Geri dönsən

Xəbər etmə
Qapım açıq
Çay istəsən
Qalan qablarım bulaşıq,
Sən gedəndən yumamışam…
Uzanmışam.
Saçlarıma sığal çəkmək istəsəsən bil
O vaxtdan dolam dolaşıq.
Sən gedəndən hal olmayıb daramağa
Yorulmuşam.
Külək darayıb saçımı,
Yağış yuyub üz – gözümü…
Çox başını ağrıtmayım,
Gəlsən dinməz – söyləməz gəl…

**BU GÜN…**
Bu gün yenə bəzənmişəm,
Ən bahalı ətirləri üzərimə səpmişəm.
Gül çiçəkər içində mən
Görüşünə gəlmişəm.
Görüş yerimiz həminki
Dəyişən təkcə yoxluğun…
O görüşə tək gəlmişəm.
İçimdəki məhəbbəti, səadəti
Sənin üçün gətirmişəm.
Niyə yoxsan?
Yoxsa sən də itib batdın tənhalığın arasında?
Yoxsa sən də çəkib getdin, qoydun yolun ortasında?
Yoxsa sən də boğazımda düyünlənən kəlmələrin sahibisən?
Yoxsa sən də uzun – uzun dərələrdən ayrılığı gətirmisən?
Məhəbbətdən üz döndərib,
Ayrılığa hə demisən…
Olsun…. Neynək…
Bu bəzəyi, bu düzəyi silim gərək.

Belə betər ayrılığa dözüm gərək…
Betərin də betəri var…
Ömür qısa, ömür gödək.
Vədə yetməz görüşməyə
Çalış ki, sözündə düz ol
Özünə yaxşı bax bir də…

**DÜŞÜNÜRƏM**
Asmağı düşünürəm…
Özümü…
Arzularımdan…
Ümidlərimdən…
İçimdə böyüyən sevgimdən…
Təzəcə boy atan məhəbbətimdən…
Söndürdüyün eşqimdən…
Bəlkə dənizlərdə çırpınan qağayının ayağından…
Ya da kənara qatlayıb qoyduğum bəyaz kəlağayımdan…
Asmağı düşünürəm…
Özümü…
Titrək səsimdən,
Boğazımda düyünlənən hər kəlməmdən, sözümdən
Mən küsmüşəm özümdən.
Kimə deyim dərdimi ki,
İnciməsin sözümdən…
İlmə – ilmə yaş axırdı gözümdən.
Beləcə atdım həyatın ağuşuna taleyimi…

**MƏN…**
Mənə gözəlim demə
Mən ki, gözəl deyiləm…
Nitqim susub qalıbdı
Nə danışam, nə deyəm?
Sən ayrılıb gedəndən
Göz yaşım dayanmadı

Yanağımda donub qaldı
Dodağıma süzülən
Göz yaşımdı – əriyən.
Mənə gözəlim demə
Mən ki, gözəl deyiləm
Uşaqlaşmışam sanki
Onlar kimi ağlayan,
Onlar kimi kiriyən….
Bəlkə yaşım da çatmaz
Elə uşaq kimiyəm.
Seviləcək yanım yox
Mən ərköyün biriyəm.
Mənə gözəlim demə,
Mən ki, gözəl deyiləm.

**BİR GÜN**

Bir gün gələcək ömrünə
Hüsnündən doymadığın,
Gülüşündən həzz aldığın
Camalı pərişan qadın…
Sevib səni istəyəcək
Fəqət onun ürəyində
Keçmişindən silinməyən
Qalacaq bir nişan adı…
Görəsən kim yaralayıb ürəyini?
Görəsən kim paralayıb arzsusunu, amalını, diləyini?..
Kimə arxalanıb, söykəyibdi kürəyini?
Dik durmağa çalışarkən, aşan qadın…
Gülə – gülə gözləri yaşaran qadın…
Gəlib girəcək ömrünə…
Hər sözünə hay can deyər,
Saçlarına sığal çəkib oxşayar qadın…
Bir az günəşə oxşayar.
Səhərləri şəfəq saçar,

Səhərlər nura boyanar.
Elə ki, axşam olunca günəş batar,
Göz yaşıyla qalar qadın.
Səhərə kimi ağlayar,
Səhərə kimi yas tutar.
Kim bilər ki, dərd – sərini?
Kim sevər belə birini?
Uçurumun kənarında oturmuştək
Gecələri ulduzları sayar qadın…
Bir gün yaşamaq eşqinə düşsə
Bir gün bu sevdadan üz döndərib, doyar qadın…

**DƏRDİM**

Dərdim özümdən böyükdü,
Taleyim çiyinimə yükdü.
Ürəyim qəfil döyükdü,
Gülürəm, çək şəklimi….
* * *
Göz yaşımı gizlətmişəm,
Ürəyimi sızlatmışam,
Ağrımı da azaltmışam,
Gülürəm, çək şəklimi.
* * *
Sığal telimə çəkmədin,
Alıb dərdimi çəkmədin,
Barı fikrimi çəkmədin,
Gülürəm, çək şəklimi…

**SƏNİ**

Özümdən çox sevdim səni…
Amma qaçdım bu sevgidən…
Qorxdum… Qaçdım…
Payız gələndə uçub gedən quşlar kimi…
Ürkdüm bir az…

Çox həssasam…
Bəlkə bir az ağlasam
Rahatlaram
Bilirsənmi,
Özümdən çox sevdim səni
Duruşunu, yerişini…
Oğrun – oğrun baxışını…
Yorğun – yorğun gülüşünü…
O qədər doğma oldun ki,
Əzbərlədim gəlişini…
Bu gəlmək handa bir sayılır
Məhəbbət qanda bir sayılır
Qanımdan çox sevdim səni,
Canımdan çox sevdim səni.
Ha istədim yaxınlaşım,
Ha danışım, soraqlaşım,
Bəxti qara taleyim var
Səni görüb yaxşılaşım…
Mən əslində pis deyiləm,
İnan ki, qəliz deyiləm
Dinlə, sənə söz deyirəm,
Özümdən çox sevdim səni…

**YOLLAR**
Sən gedəni yol gözümdə uzandı…
Sən gedəni eşq sözümdə azandı…
Ayrılıqdan kim uddu, kim qazandı?
Dözmür ürək, parçalanıb, qayıt gəl…
* * *
Gedişinə nə ad qoyum görəsən?
Yalanına necə uyum deyəsən…
Canımdan da inan doydum, biləsən,
Dözmür ürək, parçalanıb, qayıt gəl…

**TƏNHA QADINLAR**

Elə bilmə qadınlar güclü olur,
Gücsüzü də var.
Elə bilirsən çox danışırlar,
Sözsüzü də var.
Tənha qadınlar da olur,
Saçlarına küləklər sığal çəkər,
Dodaqları yağışdan islanar.
Onları qucaqlayan öz qolları olar
O da ki, ya darıxanda, ya da üşüyəndə.
Xəfif bir adyala qısılarlar,
Kitaba, dəftərə sarılarlar.
Vallah özümdən bilirəm kitab bəhanədir,
Dünyadan qopub ağlayarlar,
Şəkillərdə gülərlər.
Şəkillər… Ah şəkillər…
Taleyə vəkildirlər…
Gücsüz qadınlara hakim kəsilər.
Hə… Axı bir şey daha var,
Yıxılana balta vuran çox olar.
Yıxılan qadınlar…
Onları kimsə yıxmaz ki,
İçindən yıxılı qalarlar.
Ürəyindən,
Kürəyindən…
Gərəyindən çox sevərlər.
Eşqindən yıxılı qalarlar…
Yıxılsa da dik durmağa çalışarlar.
Özü yıxılanlar ağlamaz
Amma ağlayanı da olur,
Sən elə bilmə qadınlar güclü olur,
Gücsüzü də var.
Tənha qadınlar da olur…
Heç kimə bel bağlamayan,

Heç kimdən sevgi ummayan,
Eşq, məhəbbəti duymayan
Yorğun qadınlar da olur.

**GƏL**
Çarpayının kənarına
Göz yaşımı buraxmışam…
Darıxanda yastığını qucaqlayıb
İçin – için ağlamışam…
Nəfəsim var çarpayında
Oturub şəkillərinə baxmışam
Saatlarla…
Xatirələri unutmamışam…
Birlikdə…
Əl – ələ…
Qol – qola…
Tay var idi bizə bu məmləkətdə?
Bəs o gecə?
Nə oldu de?
Belə gediş de olardı?
Qapımı külək döyürdü,
Mənim canım üşüyürdü.
İçimdəki məhəbbətim cücərirdi,
Böyüyürdü…
Yarım qoydun.
Bu sevdadan necə doydun?
Necə oldu amansızca, birdən – birə məhəbbətdən soyudun?
Canımda daha can qalmadı…
Bacarmıram , qurban olum…
Mən ki, sənə yad olmadım,
Mən ki, sənə od olmadım.
Qollarımı qırdın mənim
Sən mənə qanad olmadın.
İndi o ev mənsiz qalıb

Uçuq – sökük divarların arasında mən idim mən
Deyib – gülən,
Uşaq kimi şənlənən,
Üzünü güldürən…
Yanağına kəpənəktək öpüşümü qonduran.
Bilirsən də…
Neçə – neçə şeylər oldu demirəm…
Desəm tükün biz -biz olar
Yaşananlar qan donduran.
Sevgi deyib keçmə daha
Eşq belə olmaz, qadası…
Məni candan usandırdı,
Cəfadan yar usanmazmı?…

**DE**
Gülüşümdə həyat vardı…
Deyərsən ki, güldü getdi.
Həyatımda nə oldusa
Deyərsən ki, öldü getdi.…
* * *
Bədbəxt etdim denən onu,
Denən ki, heç sevməmişəm.
Soruşsalar açıq danış,
Deyərsən ki, bildi getdi…
* * *
Danışarsan sevdiyimi,
Uğruna can verdiyimi,
Kainatda bir qüvvəydi,
Deyərsən ki, gəldi getdi…
* * *
Olmayacam bu həyatda,
Görməyəcəksən day məni.
Yadına düşsəm ağlama,
Deyərsən ki, keçdi getdi…

* * *
Günah nədi bilməmişdim,
Sənə qədər sevməmişdim.
Soruşsalar məni, denən,
O, günaha batdı getdi…
* * *
Mən burda qalan deyiləm,
Doğruyam, yalan deyiləm.
Könlünü alan deyiləm,
Deyərsən ki, atdı getdi…
* * *
Gəl özünə öymə belə,
Dizlərinə döymə belə.
Qamətini əymə belə,
Deyərsən ki, əydi getdi.
* * *
Olmaz iynə, düymə belə,
Məni sancıb söymə belə.
Gəl xətrimə dəymə belə,
Deyərsən ki, dəydi getdi…

**SEVGİLİ**
Deyirlər ki,
Sevgilər var ucuz olur…
De neçəyə?
Alım yığım.
Bilirsən də…
Zamanı gələndə bahalaşır
Hər şey kimi.
Yadındadı?
Vaxt var idi dollar ucuz
Su qiyməti
İndi isə valyutada at oynadır.
Əvvəllər ucuz alardıq

Çayı, yağı, əti, suyu
İndi hər şey bahalaşıb
Od bahası
Pul qalmayıb alınası.
Sən sevginin yerini de,
Ac qalıb susuz dolanım
Eybi yoxdu.
Heç kim bilmir nə yeyirəm, nə içirəm…
Barı sevgidən bol olum.
Yoxsulluğun arasında
Sevgi axtaran kiməsə
Arxa olum, qoy yol olum.

**FƏLƏK**
Fələk səni məndən aldı,
Nə oldusa birdən oldu.
Fəqət eşqin alovunda
Nə mən yandım, nə sən yandın…
* * *
Bu sevdaya bel bağlama,
İndi uşaqtək ağlama.
Danış, içində saxlama,
Nə mən dindim, nə sən dindin…
* * *
Fəqət eşq deyib uçardıq,
Məsuliyyətdən qaçardıq.
Biz ayrılmağa düçardıq,
Nə mən döndüm, nə sən döndün…

**YUXU**
Səsin qulağımdan getmir,
Baxışın da yadımdadı,
Deyəsən gecə gəlmisən,
Bəlkə yuxumda görmüşəm…

* * *

Sanki örtdün üst – başımı,
Sonra sildin göz yaşımı,
Mən belə bir tanışımı
Bəlkə yuxumda görmüşəm…
* * *
Oğrun oğrun mənə sarı,
Baxdın güldün belə barı.
Laylay dedin gecə yarı,
Bəlkə yuxumda görmüşəm….
* * *
Bağımda gülüm açmışdı,
Günəş şəfəqin saçmışdı,
Sanki gecədən qaçmışdın,
Bəlkə yuxumda görmüşəm…
* * *
Görən doğru, yalandımı?
Xatirimdə qalandımı?
Məni məndən alanımı,
Bəlkə yuxumda görmüşəm…

**BU NƏ ZARAFATDIR!?**

Nə qədər darıxar insan
Bir insanın yoxluğuna?..
Necə öyrəşər?
Təsəvvür et
Dünən danışdığın, güldüyün adam
Bu gün başqalaşır, tanımır səni…
Bu nə zarafatdır, ay qadan alım?!…
Mən ki, məhəbbətə son qoy demədim,
Qəfil gedişini heç gözləməzdim…
Daha doğmam deyib öyünmərəm mən….
Doğmalar köçəri quşlar kimidir…
Vallah ən yaxşısı yad olmaq elə

Bilirsən, nə gələr, nə atıb gedər.
Söylə, bu sevgidən dönmək olardı?
İndi hayqırtımı eşidirsənmi?
Səsini səsimə söykəyərsənmi?
Daha darıxmaqdan betər olmuşam
Görsən vəziyyətimi nə təhər olmuşam
Üz gözüm qırışıb yumaq kimiyəm…
Başqa bir ocağa yamaq kimiyəm…
Məni sən gətirdin belə bir hala
Bu nə zarafatdır, ay qadan alım?
Qayıt gəl, dön daha, yuvan ki, mənəm
Bəlkə nə zamansa özünə gəlsən
Onda sənə qalan peşmanlıq olar
Qorxma, taledir də, ölüb gedərəm…
Əbədi deyilən həyat varmı ki?
Sadəcə dönsəydin son dönəmimdə
Daha darıxmaqdan bezar olmazdım.
Sözlər də dadıma yetməyir artıq
Susuram, başa düş, artıq dön geri
İndi danışmağa gücüm də yoxdur.
İşdi, dönsən
Bir xahişim
Bircə dəstə çiçək al
Görsəm ürəyim sevinər
Görməsəm, ruhum şad olar…

**DEMƏ**

Anama deməyin nə çəkdiyimi,
Qoy anam bilməsin, anam duymasın.
Bilsə yaşamaqdan əl çəkdiyimi
Ürəyi tab etməz, canı yanmasın.
Deməyin ki, öldü, rəhmətə getdi,
Deyərsiz könüllü əsgər gedibdi.
Ya da ki, ən böyük arzusu idi mən gəlin olum

Deyərsiz sevdiyi oğlana getdi.
Əşşi… Onsuz toy gah var, gah da ki, yoxdu…
Görsəniz narahatdı deyin ki, qaçdı…
Ya da deyərsiniz xaricə getdi –
Orda təhsil alıb, iş quracaq de…
Bilirəm inanmaz onsuz bunlara…
Amma siz yenə də düzün deməyin.
Nə qədər gec bilsə elə yaxşıdı…
Mən də son günümü yaxşı keçirim,
Gedib deyib -gülüb şənlik eləyim.
Bir şeydən rahatam getdiyim yerdə
Məni təm-təraqla Allah gözləyir
Məgər bu boyda gözləntini mən,
Geri çevirməyim de necə olar?!
Barı o dünyada yatım dincəlim
Burdakı yuxuma haram qatdılar…

**OL**
Uzaqlardan baxırsan
Gəl, gendən baxan olma.
Güclə bir yuva qurduq
Yuvamı yıxan olma…
* * *
Gecələr daş sallanır
Gözlərimdən elə bil.
Yuxularım yol alır
Daha saçını yolma…
* * *
Mən qıvrılıb içimdə
Ağrı – sızı çəkmişəm.
Saraldım bu biçimdə
Sən də saralıb solma…

**GECƏLƏR**

İndi gecələr belə
Mənə haram olubdu…
Nə uzana bilirəm,
Nə də yata bilirəm…
Qalxıdığım pillələri
Gülə – gülə enirəm.
Mənə yolu göstərdin,
Susub dinməz gedirəm.
Ay bədbəxt, nə deyəydim?!.
Dalaşıb vuruşaydım?..
Mən elə qadınam ki,
Sakit çıxıb gedirəm.
Gör danışıb dinirəm?
Sənə də yaraşan odur,
Xəcalətdən ölürəm…
Heyif sədaqətimə,
Heyif məhəbbətimə.
Kaş bu eşqi istəyi,
Kimsəsizlə böləydim,
Ya bir it saxlayaydım…
İtlər çox vəfalıdır,
İtə bir sümük atsan,
Sahibi bilər səni.
Sənə isə nə istək,
Nə də kar edir sevgi.
Səninki yeyib, yatmaq,
Bacardığın nədir ki?
Bir də elə ağlatmaq.
Daha yolum kəsişməz
Səninlə bundan belə.
Bir də məni axtarma,
Bir də yığıb eləmə.

**KAŞ…**

Kaş ki, gedə biləydim…
Bu ölkədən, bu yurddan
Elə bir yerə ki,
Elə bir ünvana ki…
Orda özüm olmayım…



## QEYDLƏR




**ŞƏLALƏ CAMALIN YAZILARI**
**MÜSABİQƏ ELAN OLUNDU**
**PDF>>>ZAUR USTAC UŞAQ ŞEİRLƏRİ**
**PDF: >>>>> ZAUR USTAC "QƏLƏMDAR-2"**
**PDF>>> ZAUR USTAC "BB" KİTABI**
**>>>> ƏN ÇOX OXUNAN HEKAYƏ <<<<**
**ZAUR USTACIN SATIŞDA OLAN KİTABLARI**

**"YAZARLAR" JURNALI PDF**
**YAZARLAR.AZ**
==========================================================
<<<<<< **WWW.USTAC.AZ** və **WWW.BİTİK.AZ** >>>>>>

*Əlaqə:* Tel: (**+994**) 70-390-39-93 E-mail: zauryazar@mail.ru

**“TƏRƏFSİZ ƏDƏBİYYAT TARİXDİR!”**

Jurnal bu layihə çərçivəsində ödənişsiz əsaslarla nəşr olunur.

**Redaksiyanın ünvanı:** Az-1012, Bakı, M.Xiyabani-14a
Dövlət qeydiyyatı: № 2319, 16.08.2007-ci il.
Əvvəlki illərdə 15 xüsusi buraxılışı olub.
Dövri olaraq 2021-ci ildən çıxır.

E-mail: zauryazar@mail.ru

Rəsmi saytı: **WWW.YAZARLAR.AZ**
Telefon: (012) 430-14 -81 (+994) 70-390-39-93

“Yazarlar”ın redaksiyasında yığılıb səhifələnir,
“El kitab çapı” mərkəzində çap olunur.
Çapa imzalanıb: 01.10.2022
Sifariş: №: 72
Format: A 5
Tiraj:100.
Elektron variant var.
Qiyməti: PULSUZ.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.